5 may 2023 №34 (2003) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Razılığa gəlmək üçün ən yaxşı yol vasitəçi olmadan birbaşa danışıqlardır




İstər regional inkişafla, istər beynəlxalq məsələlərlə, istərsə də ölkələrin ərazi bütövlüyü ilə bağlı siyasətimiz tamamilə aydındır. Azərbaycan geosiyasi dəyişikliklər nəticəsində daha güclü olacaq. Biz artıq bunu görürük.

Prezident İlham Əliyev bu sözləri mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfransda çıxışı zamanı deyib. Dördüncü dəfə təşkil olunan ənənəvi tədbir bu il Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub. Mayın 2-də ADA Universitetində işə başlayan konfransa 30-dan çox ölkədən 60-dək nümayəndə qatılıb.

Azərbaycan Prezidenti konfrans iştirakçılarının müxtəlif mövzulu suallarını cavablandırıb.

Dövlət başçısı bildirib ki, Ermənistanın Qarabağı Azərbaycanın bir hissəsi kimi başa düşməyə, təkcə başa düşməyə deyil, açıq şəkildə qəbul etməyə yaxınlaşması da qismən geosiyasi dəyişiklik, qismən də "kimsə gəlib onların yerinə döyüşəcək" illüziyalarının çökməsi ilə əlaqədardır.

davamı səh. 2-də

## Müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi onun ideya və arzularının gerçəkləşdiyi, tövsiyə və vəsiyyətlərinin yerinə yetirildiyi tarixi şəraitdə keçirilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamında qeyd edildiyi kimi, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Baş nazir Əli Əsədov bu sözləri mayın 2-də Heydər Əliyev Sarayında vaxtilə Ulu öndərin qayğısı ilə respublikamızdan kənarda ali təhsil almış mütəxəssislərin toplantısında çıxışı zamanı deyib.

səh. 3

## "Sən elə bir zirvəsən..."

Mayın 3-də Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Sən elə bir zirvəsən..." adlı bədii qiraət müsabiqəsi keçirildi.

səh. 2

## "Bakı Müasir Musiqi Günləri"




Mayın 21-dən 25-dək Elm və Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin dəstəyi ilə "I Bakı Müasir Musiqi Günləri" festivalı keçiriləcək.

Festivalın əsas məqsədi müasir Azərbaycan bəstəkarları ilə Avropa və Amerika bəstəkarlıq məktəbləri arasında qarşılıqlı əlaqələr mövzusunu işıqlandırmaqdır.

Festivalda yerli musiqiçilərlə yanaşı, İsveçrə, Macarıstan, Almaniya, Fransa, Rusiya və Qazaxıstandan dəvət olunmuş ifaçıların da iştirakı nəzərdə tutulur. Dəvətli ifaçılar arasında Avital Cohen (fleyta), Daniel Veissberq (bəstəkar), Szilard Benes (klarnet), Qleb Xoxlov (violin), Aleksandr Xubeyev (bəstəkar), Yulia Miqunova (violonçel), Andrey Yurgenson (klarnet) da var.

Eyni zamanda tanınmış macar bəstəkar György Ligetinin 100 illiyinə təsadüf edən festivalın proqramı ölkəmizdə ilk dəfə ifa olunacaq əsərlərlə zəngindir. Musiqisevərlər G.Ligeti, G.Scelsi, K.Stockhausen, M.Feldman, B.Furrer, S.Qeni, P.Dusapin, H.Holliger, J.Cage, T.İbişov, A.Sısoyev, T.Qasımzadə, D.Veissberq, A.Qəmbərli kimi bəstəkarların əsərlərini dinləmək imkanı qazanacaqlar.

davamı səh. 2-də

# Yenidən təməli qoyulan yurd yerlərimiz

### Laçın, Qubadlı, Zəngilan və Cəbrayılda səkkiz yaşayış məntəqəsinin inşası başlanır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Laçın və Qubadlı rayonlarına səfər edib.

Dövlətimizin başçısı əvvəlcə Laçın rayonunda Güləbird kənd yaşayış məntəqəsinin təməlqoyma mərasimində iştirak edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Prezidentinə kənddə görüləcək işlər barədə məlumat verib.

Bildirilib ki, Güləbird kəndində ümumilikdə 581 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ərazi 172 hektardır. Birinci mərhələdə kəndə 150 ailənin köçürülməsi üçün fərdi evlərin inşası planlaşdırılır. Evlər ikiotaqlı, üçotaqlı, dördotaqlı və beşotaqlı olacaq. İkiotaqlı evlərin sahəsi 70, üçotaqlılar 88, dördotaqlılar 103, ikimərtəbəli olacaq beşotaqlıların sahəsi isə 120 kvadratmetr təşkil edəcək. Həmçinin 432 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək. Kənddə klub icma, ailə sağlamlıq və idman sağlamlıq mərkəzləri və digər zəruri infrastruktur obyektləri inşa olunacaq, istirahət parkı salınacaq.

***

Prezident İlham Əliyev mayın 4-də Qubadlı şəhərində ilk yaşayış məhəlləsinin təməlinin qoyulması mərasimində iştirak edib.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına yaşayış məhəlləsi barədə məlumat verib.

Bildirilib ki, ümumi sahəsi 2,6 hektara yaxın olan yaşayış məhəlləsinin yerləşdiyi ərazi çay və dağ mənzərəsi ilə əhatə olunub. Baş plana uyğun salınan məhəllədə binaların üçmərtəbəli və dördmərtəbəli olması planlaşdırılır. Məhəllədə ümumilikdə 156 mənzilin (ikiotaqlı, üçotaqlı, dördotaqlı, beşotaqlı) tikintisi nəzərdə tutulur.



Qubadlı şəhərində inzibati binanın və 600 şagird yerlik tam orta məktəb binasının, rayon Mərkəzi Xəstəxanasının da təməli qoyulub. Məktəb Qubadlı şəhəri, Dondarlı kəndi və ona bitişik açıq ərazidə inşa olunacaq. 91 çarpayılıq səhiyyə ocağı isə 4,5 hektardan çox ərazidə tikiləcək.

Dövlət başçısı Qubadlı rayonunun Xanlıq, Mahruzlu və Zilanlı kəndlərinin təməllərini qoyub.

Xanlıq kəndi rayon mərkəzindən 16 kilometr məsafədə, Həkəri çayının sahilində yerləşir. Layihələndirilən ərazi Xanlıq kəndinin köhnə ərazisini əhatə edir və ümumilikdə 273 hektardan çoxdur. Birinci mərhələdə kəndə 1357 nəfərin köçürülməsi üçün 356 fərdi evin tikintisi nəzərdə tutulur.

Mahruzlu kəndi rayon mərkəzindən 19 kilometr məsafədə yerləşir. Layihələndirilən ümumi ərazisi 197 hektar təşkil edir. Mahruzlu kənd inzibati ərazi dairəsində yerləşən Alaqurşaq və Muğanlı kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib. Birinci fazada kənddə 145 evin tikilməsi, gələcəkdə burada ümumilikdə 690 ailənin yaşaması planlaşdırılıb.

Zilanlı kəndi rayon mərkəzindən 20 kilometr məsafədə, Həkəri və Bərgüşad çaylarının qovuşduğu ərazidə yerləşir. Zilanlı rayonun Ağalı kəndi ilə qonşudur. Layihələndirilən ümumi ərazisi 180 hektardır. Birinci mərhələdə burada 159 evin tikintisi nəzərdə tutulub. Zilanlı kənd inzibati ərazi dairəsində yerləşən Kürd Mahmudlu və Sələli kəndləri də bu yaşayış məntəqəsinə daxil olmaqla layihələndirilib. Gələcəkdə burada 630 ailənin yaşaması planlaşdırılıb.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də Zəngilan rayonuna səfər edib.

Dövlət başçısı Zəngilan şəhərində Konqres Mərkəzinin tikintisi ilə tanış olub. Mərkəzin layihələndirilən ərazisi 2,2 hektardır. Mərkəzin 605 yerlik binası ilə yanaşı, restoran, pavilyon da inşa olunur. Ərazidə müvafiq yaşıllıq zonaları salınacaq, avtomobillər üçün yerüstü parklanma sahəsi yaradılacaq. Mərkəzin damı yaşıllıq zolağı və günəş panelləri ilə əhatə olunacaq.

davamı səh. 2-də

## "Heydər Əliyev və Milli Kitabxana" kitabının təqdimatı keçirilib

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyinin Milli Kitabxana ilə birgə nəşri olan "Heydər Əliyev və Milli Kitabxana" adlı kitab işıq üzü görüb.




Mayın 4-də Heydər Əliyev Mərkəzində kitabın təqdimat mərasimi keçirilib.

Əvvəlcə Ulu öndərin 1995-ci ilin 3 iyun tarixində ilk dəfə Azərbaycan Milli Kitabxanasına gələrkən miniatür kitab sərgisinin açılışında və "Vətənə, dövlətə, xalqa sədaqət andı" kitabının təqdimat mərasimində çıxışından lent yazısı səsləndirilib.

Tədbirin moderatoru Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid mərasimi açaraq Heydər Əliyevin Milli Kitabxanaya səfərlərindən, öz şəxsi kitabxanasından 300 nüsxəyə yaxın kitabı hədiyyə etməsindən danışıb.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, bu gün ölkənin hər yerində Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi qeyd edilir. Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr Azərbaycan mədəniyyətinin də intibah dövrüdür.

Ulu öndərin Milli Kitabxanaya hər səfərinin böyük əhəmiyyət daşıdığını, yeniliklərlə müşayiət olunduğunu bildirən nazir müavini deyib ki, bu gün müasir kitabxana inkişaf edir. Prezident İlham Əliyevin sərəncamları ilə Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlər həyata keçirilib, 6 milyondan artıq kitab çap edilərək kitabxanalara pulsuz paylanılıb.

davamı səh. 2-də

## "Əbədi ömrün yüz ili"




Mayın 3-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda Ulu öndər Heydər Əliyevin yubileyinə həsr olunmuş "Əbədi ömrün yüz ili" kitabının təqdimatı olub. Kitab AYB-nin təşkilatçılığı, Mədəniyyət Nazirliyinin dəstəyi ilə işıq üzü görüb.

Əvvəlcə nəşrin layihə rəhbəri, tərtibçi və ön sözün müəllifi AYB-nin katibi, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli kitab haqqında məlumat verib. Bildirib ki, "Əbədi ömrün yüz ili" bədii-publisistik məqalələr toplusu çox dəyərli nəşrdir. Kitaba Yazıçılar Birliyinin üzvü olan dəyərli söz və bilim adamlarının bədii-publisistik məqalələri, esse və xatirələri daxildir: "Yazı müəlliflərinin böyük əksəriyyəti Ulu öndəri şəxsən tanıdıqlarından onların düşüncələri, xatirələri, bu böyük şəxsiyyət haqqında mülahizə və müşahidələri maraqlı və zəngindir. Ona görə də mən yalnız nəşrə bələdçilik etməyi öz üzərimə götürdüm, düşünürəm ki, gözəl bir kitab ərsəyə gətirə bildik. Kitabın ərsəyə gətirilməsinin əsas təşəbbüskarlarından biri də Anar müəllimdir. Ona görə də həm Anar müəllimə, həm Mədəniyyət Nazirliyinə, həm də bütün zəhməti keçənlərə təşəkkür edirəm".

davamı səh. 3-də

## Ulu öndərin sevdiyi əsərlər

Mayın 8-də Azərbaycan Milli İncəsənət Muzeyində "Heydər Əliyev – 100: sevimli əsərlər" adlı sərgi açılacaq.



100-dən artıq eksponatın nümayiş olunacağı vernisajda Ulu öndərin yaradıcılıqlarına xüsusi sevgi ilə yanaşdığı görkəmli fırça və tişə ustalarımızın təxəyyülündən süzülüb gələn sənət örnəkləri yer alacaq.

Ziyarətçilər Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov, Hüseyn Əliyev, Oqtay Sadıqzadə, Elmira Şahtaxtinskaya, Maral Rəhmanzadə, Mircavad Cavadov, Tofiq Cavadov, Rasim Babayev və digər sənətkarların əsərləri ilə tanış olacaqlar.

davamı səh. 2-də

### Niyazinin Mənzil-Muzeyində fortepiano musiqisi axşamı



səh. 5

### "Azərbaycanım" VI Respublika Uşaq Rəsm Festivalı çərçivəsində elan olunmuş müsabiqənin yekun sərgiləri açılacaq

səh. 3



### Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində yubiley konserti

səh. 8

№34 (2003)
5 may 2023
www.medeniyyet.az

# Razılığa gəlmək üçün ən yaxşı yol vasitəçi olmadan birbaşa danışıqlardır

## "Ermənistanın konstruktivliyinə ümid edirik"

*əvvəli səh. 1-də*

Azərbaycanla Ermənistan arasında normallaşdırma prosesindən bəhs edən İlham Əliyev bildirib ki, razılığa gəlmək üçün ən yaxşı yol iki ölkə arasında, heç bir vasitəçi, köməkçi və ya pozucu olmadan birbaşa danışıqlardır.

Keçmiş Minsk qrupu həmsədrlərinin danışıqlarda yenidən iştirakla bağlı cəhdlərinin olduğunu deyən dövlətimizin başçısı bildirib ki, onlar kömək etmək istəyirlərsə, Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına yardım edə bilərlər.

Prezident həmçinin deyib ki, Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqların növbəti raundunun bu ay Rusiyada keçirilməsi nəzərdə tutulub. Xatırladaq ki, iki ölkənin XİN başçıları mayın 1-dən 4-dək Vaşinqtonda danışıqlar aparıblar.

"Biz Ermənistanın konstruktivliyinə ümid edirik. Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar", – deyə İlham Əliyev vurğulayıb.

"Qarşımızda Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulması kimi böyük çağırış və məsələ dayanır", – deyən Prezident İlham Əliyev bildirib ki, bizim heç bir ölkə, xüsusən də qonşu ölkə ilə hər hansı problemin olmasına ehtiyacımız yoxdur.

Azərbaycanın İranla münasibətlərinə toxunan dövlət başçısı deyib ki, münasibətlər hazırda heç zaman olmadığı qədər çox aşağı səviyyədədir və onların həmin səviyyədə qalacağı, yoxsa daha aşağı düşəcəyi və ya qalxacağı barədə əvvəlcədən bir şey söyləmək çox çətindir.

Prezident diqqətə çatdırıb ki, hər şey Laçın ilə Xankəndi arasında kameraları quraşdırdıqdan sonra baş verdi: "Biz İran yük maşınlarının dövri olaraq Qarabağa hərəkət etdiyini ifşa etdik. Bu, tamamilə qanunsuz idi, çünki İran Azərbaycanın ərazi bütövlüyünü tanıyır və bu cür işlərlə məşğul olmalı deyildi...".

Azərbaycanın Tehrandakı Səfirliyinə hücum barədə danışan Prezident İlham Əliyev bildirib ki, bu, diplomatlarımızı və onların ailə üzvlərini qətlə yetirmək məqsədilə qəsdən təşkil olunmuş terror aktı idi. Çünki həmin binada nəinki bizim səfirliyimiz, o cümlədən ailələrin yaşadığı mənzillər də yerləşir. Bir sıra ölkələrdə bizim təhlükəsizlik əməkdaşlarımız var, lakin yalnız İranda onlara silah gəzdirməyə icazə vermirlər.

Dövlət başçısı qeyd edib ki, biz İran rəsmilərindən bəzi məktublar almışıq: "Bəzi telefon danışıqları olub ki, münasibətlər normallaşsın. Lakin, birmənalı olaraq, tələblərimiz legitim və əsaslıdır. Əgər bu tələblər yerinə yetirilərsə, onda biz normallaşma haqqında danışa bilərik. Əgər yox, bu, belə də qalacaq. Bir daha deyirəm ki, bu, bizim seçimimiz deyil. Lakin İranda hər kəs, bütün dairələr nəhayət anlamalıdır ki, hədə və terror dili Azərbaycanla işləməyəcək. Onlar bunu nə qədər tez anlasalar, biz normallaşma əlamətlərini bir o qədər tez görə bilərik".

# "Bakı Müasir Musiqi Günləri"

## Festivala müxtəlif ölkələrdən ifaçılar dəvət olunub

*əvvəli səh. 1-də*

"I Bakı Müasir Musiqi Günləri" Azərbaycanda konsert-ifaçılıq fəaliyyətindən əlavə, müasir musiqi maarifçiliyi və təhsilinə hesablanmış festivaldır. Layihə çərçivəsində ustad dərsləri, məşğələlər, mühazirələr də təşkil olunacaq.

Festivalın açılış konserti mayın 21-də saat 19:00-da Beynəlxalq Muğam Mərkəzində gerçəkləşəcək. Müasir musiqi layihəsi Nizami Kino Mərkəzində "Ligeti: portret" filminin nümayişi (25 may, 19:00) ilə başa çatacaq.

Layihə haqqında daha ətraflı məlumatı festivalın rəsmi saytında (www.baku-contemporary-music-days.com), eləcə də sosial şəbəkə səhifələrində (facebook: facebook.com/profile.php?id=100091963675094; instagram: https://www.instagram.com/baku_music_society/) almaq mümkündür.

# Ulu öndərin sevdiyi əsərlər

## Milli İncəsənət Muzeyində sərgi açılacaq

*əvvəli səh. 1-də*

Yaradıcı insanları heç vaxt diqqət və qayğıdan kənar qoymayan Ulu öndər Heydər Əliyev müasirləri olan bu sənətkarların bir çoxu ilə ünsiyyət qurub, yaradıcı fəaliyyətlərinin inkişafına, eləcə də yeni-yeni rəssamlar nəslinin yetişməsinə böyük stimul verib. Özü də bir zamanlar rəssam olmaq  arzusunda olan Heydər Əliyev bu sənətin yaradıcılarına xüsusi diqqət və qayğı ilə yanaşır, onları emalatxanalarında ziyarət edir, sərgi və abidələrinin açılışında şəxsən iştirak edirdi.

Heydər Əliyevin bu görüşlərdən və tədbirlərdən xatirə qalan fotoşəkilləri Milli İncəsənət Muzeyində qorunub saxlanılan dəyərli nümunələrdir və sərgi iştirakçıları ekspozisiyada sözügedən fotoşəkilləri də izləyə biləcəklər. Tahir Salahov imzalı rəngkarlıq və Ömər Eldarovun müəllifi olduğu heykəltəraşlıq əsərlərində təsvir olunan Heydər Əliyevin obrazları sərginin xüsusi maraq doğuran eksponatlarındandır.

**Lalə**

# Yenidən təməli qoyulan yurd yerlərimiz

## Laçın, Qubadlı, Zəngilan və Cəbrayılda səkkiz yaşayış məntəqəsinin inşası başlanır





*əvvəli səh. 1-də*

Dövlət başçısı Zəngilan şəhərində inzibati binanın təməlini qoyub, "Azərenerji" ASC-nin "Sarıqışlaq" Su-Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.

Zəngilanda hotel kompleksinin təməlqoyma mərasimi də olub. Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə məlumat verib ki, Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq ona uyğun infrastruktur yaradılır. Kompleksə 110 nömrədən ibarət olacaq hotel binası ilə yanaşı 15 kottec də daxildir.

Prezident İlham Əliyev mayın 4-də Cəbrayıl rayonuna səfər edib.

Dövlətimizin başçısı əvvəlcə Xudafərin qəsəbəsinin təməlini qoyub. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev qəsəbədə görüləcək işlər barədə məlumat verib.

Qeyd edilib ki, qəsəbə Azərbaycan xalqı üçün tarixi əhəmiyyət daşıyan Xudafərin körpüsünün yaxınlığında, yeni dəmiryolu xəttindən və avtomobil yolundan 7 kilometr məsafədə salınır. Layihələndirilən ümumi ərazi 25 hektardır. Baş plana əsasən, gələcəkdə burada 149 ev tikiləcək. Birinci mərhələdə 20 evin inşası nəzərdə tutulur. Fərdi evlər iki, üç, dörd və beş otaqdan ibarət olacaq. Hər evin həyətyanı sahəsi 600 kvadratmetr təşkil edəcək.

Xudafərin qəsəbəsində məktəb, uşaq bağçası, inzibati bina, məscid, bazar, çoxfunksiyalı bina (ticarət müəssisələri, ictimai iaşə müəssisələri və s.), mədəniyyət evi, "Karvansaray" hotel və icma evi də yaradılacaq. Araz çayının sahilində və Xudafərin körpüsünün yaxınlığında parkın salınması da nəzərdə tutulub.

Prezident "Azərenerji" ASC-nin "Cəbrayıl" enerji qovşağının açılışında iştirak edib. Üçmərhələli (Azərbaycan-Türkiyə-Avropa) ölkələrarası enerji layihəsini həyata keçirmək üçün "Cəbrayıl" enerji qovşağında tikilən 330 və 110 kV-luq açıq paylayıcı qurğularda əlavə ehtiyat yuvalar yaradılıb. "Cəbrayıl" enerji qovşağının ətrafında Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar irimiqyaslı ağacəkmə və bağsalma aksiyası keçirilib.

Prezident daha sonra "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında "Avto Lizinq Azərbaycan" MMC-nin tikintisi ilə tanış olub, "Holcim Azərbaycan" ASC-nin, "Az-Tex-Import" MMC-nin, "İmprotex Qarabağ Sənaye Kompleksi" MMC-nin təməlqoyma mərasimlərində iştirak edib.

Dövlət başçısı Şükürbəyli kəndinin də təməlini qoyub. Kənddə 1042 ailənin məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 298 hektardır. Məskunlaşacaq əhalinin yaşayış yükü nəzərə alınaraq məhəllələrin salınmasının birinci mərhələsi üçün 184 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə kənddə 635 fərdi evin tikilməsi nəzərdə tutulur. Baş plana əsasən, bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Dəjəl, Şıxəliağalı və Mahmudlu kəndləri ilə birlikdə layihələndirilib.

Prezident Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına 960 şagird yerlik orta məktəbin binasında tikinti işlərinin gedişi ilə tanış olub. Cəbrayıl şəhərində 145 yaşlı orta ümumtəhsil məktəbinin yeni binasının inşasına 2021-ci ilin oktyabrında başlanılıb. Burada şagirdlərin təhsili, təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün hərtərəfli şərait yaradılacaq.





Sonra 91 çarpayılıq Zəngilan rayon Mərkəzi Xəstəxanasının təməli atılıb.

Prezident rayonun Cahangirbəyli kəndinin də təməlini qoyub. Kəndin layihələndirilən ərazisi 179,5 hektardır. Kənd perspektivdə 573 ailənin yaşaması üçün planlaşdırılıb. Birinci mərhələdə iki, üç, dörd və beş otaqlı olmaqla ümumilikdə 242 fərdi evin tikintisi, fərdi evlərlə bərabər bloklaşdırılmış üçmərtəbəli binaların inşası da nəzərdə tutulur.

***

Daha sonra Horovlu kəndinin təməli qoyulub. Bildirilib ki, layihələndirilən ümumi ərazi 248,1 hektardır. Perspektivdə bu kənddə 867 ailənin yaşaması nəzərdə tutulub. Baş plana əsasən, köhnə Horovlunun ərazisini əhatə edən bu kənd ərazi vahidinə görə bir-birinə yaxın olan Çapand, Safarşa, Fuğanlı və Həsənqaydı kəndləri ilə birlikdə layihələndirilib. Birinci mərhələdə 334 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq.

# "Heydər Əliyev və Milli Kitabxana" kitabının təqdimatı keçirilib

*əvvəli səh. 1-də*

Təqdimatı keçirilən kitab haqqında danışan nazir müavini qeyd edib ki, yeni nəşr Milli Kitabxana üçün xüsusilə əlamətdardır. Bu il kitabxananın da 100 illik yubileyidir. Yeni kitab hər iki yubileyə dəyərli töhfədir.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli bildirib ki, "Heydər Əliyev və Milli Kitabxana" kitabı Ulu öndərin kitabxana işi sahəsində professional xidmətlərini görməyə imkan verir. Bu nəşr Heydər Əliyevin bioqrafiyasını zənginləşdirməyə imkan yaradır: "Bu kitab həm də Heydər Əliyevə olan minnətdarlıq duyğusunu ifadə edir".

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov bildirib ki, Heydər Əliyevin mədəniyyətə göstərdiyi diqqət onun kitabxanalara, kitaba, mütaliəyə verdiyi dəyərdən başlayır. Bu kitab Heydər Əliyevin 100 illik yubileyinə qiymətli hədiyyədir.




Yazıçılar Birliyinin birinci katibi Xalq yazıçısı Çingiz Abdullayev qeyd edib ki, Heydər Əliyev mədəniyyətə çox böyük dəyər verirdi. Milli Kitabxana millətin sərvətidir. Kitabxananın uğurlu fəaliyyətində Ulu öndərin böyük rolu var.

Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdulla, Milli Məclisin üzvü professor Anar İsgəndərov, AMEA-nın Mexanika və Riyaziyyat İnstitutunun baş direktoru müxbir üzv Misir Mərdanov, Bakı Dövlət Universiteti Kitabxanaçılıq və informasiya fakültəsinin dekanı dosent Ələmdar Cabbarlı, Naxçıvan MR-in Bakıdakı Daimi Nümayəndəliyinin rəhbəri Bəxtiyar Əsgərov çıxışlarında Ulu öndərin Milli Kitabxanaya olan münasibətindən danışıb, yeni nəşrin əhəmiyyətini yüksək qiymətləndiriblər.

Sonda "Heydər Əliyev və Milli Kitabxana" kitabının müəllifi, Milli Kitabxananın direktoru professor Kərim Tahirov çıxış edərək tədbir iştirakçılarına təşəkkürünü bildirib.

# Bədii qiraətçilər "Sən elə bir zirvəsən..." dedilər

## Ulu öndərin 100 illik yubileyinə həsr olunan müsabiqə keçirildi

Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə mədəni-kütləvi tədbirlərin sırası hər ötən gün genişlənir.

Mayın 3-də Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə Ümummilli liderin yubileyinə həsr olunmuş "Sən elə bir zirvəsən..." adlı bədii qiraət müsabiqəsi keçirildi.

ATXİ-nin böyük zalında keçirilən tədbirdə tanınmış mədəniyyət və incəsənət xadimləri, ziyalılar, sənətsevərlər iştirak edirdilər.

Qonaqlar əvvəlcə binanın foyesində fotosərgi ilə tanış oldular. Böyük şəxsiyyətin ömür yolunun ayrı-ayrı anlarının əks olunduğu fotosərgi sonra yerini səhnədəki böyük ekranda videoçarxa verdi. Biz tarixi kadrlar vasitəsilə fəaliyyətinin bütün dönəmlərində Vəteninin inkişafı üçün çalışan və bu mənada milli mədəniyyəti, onun bütün istedad və bacarıqlı simalarını diqqəti ilə əhatə edən bir şəxsiyyətin əməllərinə yenidən şahidlik etdik.



Tədbirdə çıxış edən ATXİ-nin sədr müavini Xalq artisti Hacı İsmayılov Ulu öndərin sənətə və sənətkara diqqət və ehtiramından danışdı, onun Azərbaycanın tərəqqisi yolunda atdığı tarixi addımlar sayəsində xalqın yaddaşında əbədi qalacağını dedi. Müsabiqə haqqında məlumat verən Xalq artisti bildirdi ki, layihənin məqsədi Ulu öndərimizə həsr olunmuş ədəbi-bədii nümunələri təbliğ etmək, habelə milli mədəniyyət məkanında baş verən yaradıcılıq proseslərini fəallaşdırmaq, bədii qiraətə olan marağı artırmaq və yeni yaradıcılıq axtarışlarına şərait yaratmaqdan ibarətdir.

Sonra səhnə paytaxt və bölgə teatrlarından seçilmiş aktyorların ixtiyarına verildi.

Qaçaq Qarayev (Füzuli teatrı), Anar Əhmədov (Ağdam teatrı), Ramella Rzayeva (Qusar teatrı), Yusif Həsənov (Qazax teatrı), Şölə Alışova (Naxçıvan teatrı), Xalidə Şərifova, Rəşad Səfərov (hər ikisi Gənc Tamaşaçılar Teatrı), Saleh Əzimzadə (Lənkəran teatrı), İlkin Mehdiyev (Akademik Rus Dram Teatrı), Xanirə İsgəndərova (Şuşa teatrı) və İzaməddin Bağırov (Sumqayıt teatrı) Ulu öndərə həsr olunmuş poeziya nümunələrindən seçmələri böyük sevgi və ehtiramla təqdim etdilər. Onların məharəti tanınmış rejissor, aktyor, qiraətçi və pedaqoqlardan ibarət münsiflər heyəti tərəfindən qiymətləndirildi.



Xatırladaq ki, müsabiqəyə müraciət edən 50-yə yaxın iştirakçı arasından seçilən 11 qiraətçinin mükafatlandırma mərasimi mayın 5-də keçiriləcək.

**Həmidə**

# Müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi onun ideya və arzularının gerçəkləşdiyi, tövsiyə və vəsiyyətlərinin yerinə yetirildiyi tarixi şəraitdə keçirilir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamında qeyd edildiyi kimi, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.





Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov bu sözləri mayın 2-də Heydər Əliyev Sarayında vaxtilə Ulu öndərin qayğısı ilə respublikamızdan kənarda ali təhsil almış mütəxəssislərin toplantısında çıxışı zamanı deyib.

1974-cü ildə Moskva şəhərində Plexanov adına Xalq Təsərrüfatı İnstitutuna daxil olduğunu xatırladan Ə.Əsədov deyib: "O illərdə belə nüfuzlu ali məktəblərə qəbul olmaq biz gənclər üçün böyük şərəf idi. Bu istiqamətdə atılan addımların hansı qlobal məqsədə xidmət etdiyi barədə təsəvvürümüz olmasa da, üzərimizə düşən məsuliyyəti – Azərbaycan üçün gərəkli mütəxəssis kimi yetişməyin əhəmiyyətini dərk edir, respublika rəhbərinin xeyir-duasından daha da ruhlanırdıq. İllər sonra Ulu öndər özü etiraf edirdi ki, bu uzaqgörən strategiyanın məqsədi bir çox ixtisaslar üzrə milli kadrların hazırlanması ilə yanaşı, həm də Azərbaycan gənclərinin dünyagörüşlərinin genişləndirilməsi idi. Bugünkü toplantının iştirakçıları Azərbaycanın ictimai-siyasi həyatının müxtəlif sahələrində fəaliyyət göstərən insanlardır. Hər birimiz böyük həyat yolu keçərək şəxsiyyət kimi formalaşmışıq, müxtəlif peşələrə yiyələnmişik, müxtəlif vəzifələr tutmuşuq. Lakin bizi birləşdirən mühüm bir faktor var – əksəriyyətimiz Ulu öndərin böyük diqqət və qayğısı nəticəsində Azərbaycandan kənarda ali təhsil almaq şərəfinə nail olmuşuq. Bu gün biz böyük iftixar hissi ilə deyirik ki, Heydər Əliyev məktəbinin məzunları, Heydər Əliyevin kadrlarıyıq".

Baş nazir vurğulayıb ki, Ulu öndərin bu siyasəti davam edir, bu gün elm və təhsil ölkəmizin davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən biridir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilən "2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 32 ölkənin 350-dən çox ən nüfuzlu ali təhsil müəssisəsində təhsil almaları məqsədilə ümumilikdə 3500-dən artıq gənc xaricə göndərilib və onlara təqaüd verilib. Prezidentin 2022-ci il 28 fevral tarixli sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı" təsdiq edilib. Proqramın icrası müddətində hər il 400 nəfər olmaqla, ümumilikdə 2000 nəfərin xaricdə nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil alması təmin ediləcək.

Toplantıda daha sonra Moskva Dövlət Universitetinin 1975-ci il məzunu, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, Moskva Dövlət Universitetinin 1980-ci il məzunu, Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, Moskva Dövlət Universitetinin 1973-cü il məzunu, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının baş katibi Asəf Hacıyev, Leninqrad Dövlət Universitetinin 1986-cı il məzunu, Milli Məclisin komitə sədri Səməd Seyidov, Moskva Dövlət Universitetinin 1975-ci il məzunu, Almaniyanın Münxen şəhərində "Holmholtz" Elmi Tədqiqat Mərkəzində şöbə müdiri, Əməkdar elm xadimi Məsud Əfəndiyev, Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun 1982-ci il məzunu, Əməkdar incəsənət xadimi Ayaz Salayev, Moskva Dövlət Universitetinin 1983-cü il məzunu, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin üzvü Gülşən Paşayeva və başqaları çıxış ediblər.

Qeyd olunub ki, hələ sovet hakimiyyəti illərində Ulu öndərin təşəbbüsü ilə sosial-iqtisadi və mədəni sahələrdə həyata keçirilən tədbirlər, qazanılan nailiyyətlər ölkəmizin dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynayıb. Bildirilib ki, əgər 1969-cu ildə SSRİ-nin tanınmış ali məktəblərinə 50-dən az adam göndərilirdisə, 1973-cü ildə onların sayı 140-dan artıq, 1974-cü ildə 357, 1975-ci ildə 700-ə yaxın və 1976-cı ildən başlayaraq 800-900 nəfərə çatdırıldı. 1980-ci illərin əvvəllərindən isə 1000-dək Azərbaycan gənci respublikadan kənarda SSRİ-nin məşhur ali təhsil müəssisələrinə təhsil almağa göndərilmişdi. Azərbaycandan kənarda təhsil alanların milli tərkibində azərbaycanlıların xüsusi çəkisi 1970-ci ilədək cəmi 40 faiz təşkil edirdisə, 1976-cı ildə bu rəqəm 85 faizə, 1977-ci ildə 92 faizə, 1980-ci illərin əvvəllərində isə 98 faizə yüksəldi. Ümumilikdə 1970-1980-ci illərdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəbində 80-dən artıq sahəni əhatə edən 250-dən çox ixtisas üzrə 15 minədək azərbaycanlı gənc ali təhsil almışdı.

Heydər Əliyev hər il avqust ayının axırlarında Vətəndən kənarda təhsil alacaq tələbə gənclərlə görüşür, öz dəyərli tövsiyələrini verirdi. O, Azərbaycandan kənarda təhsil alan gənclərin fəaliyyətini daim diqqət mərkəzində saxlayır, onların inkişafına yüksək qayğı göstərirdi.

Toplantı bədii proqramla davam edib. Xalq artisti Samir Cəfərov fortepianoda Roza Səlimovanın müşayiəti ilə "Sən elə bir zirvəsən...", Əməkdar artist İlham Nəzərov fortepianoda Roza Səlimovanın müşayiəti ilə "Sənsiz" romansını ifa ediblər. Ulu öndərin "Alagöz" və "Küçələrə su səpmişəm" mahnılarını səsləndirdiyi görüntülər təqdim olunub. Ulu öndərin Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndirməsi nümayiş etdirilib. Tədbir Əməkdar artist Xəyyam Mustafazadənin ifasında "Azərbaycan" mahnısı ilə yekunlaşıb.

# Çexiya ilə diplomatik əlaqələrin 30 illiyi münasibətilə

Bu il Azərbaycan ilə Çexiya arasında diplomatik əlaqələrin qurulmasının (27 yanvar 1993) 30 illiyidir. Mayın 2-də bu münasibətlə Azərbaycan Dövlət Akademik Filarmoniyasında tədbir keçirilib.




Tədbirdə ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, Milli Məclisin deputatları və ictimaiyyətin təmsilçiləri iştirak ediblər.

Çex Respublikasının ölkəmizdəki səfiri Milan Sedlaçek çıxış edərək vurğulayıb ki, ötən 30 il ərzində Çexiya ilə Azərbaycan arasında əlaqələr dinamik şəkildə inkişaf edib. Səfir əmin olduğunu bildirib ki, ölkələrimiz arasında müxtəlif sahələrdə mövcud olan əlaqələr bundan sonra davamlı inkişaf edərək daha da dərinləşəcək. "İkitərəfli əməkdaşlıqla yanaşı, ölkələrimiz arasında çoxtərəfli platformalarda da səmərəli əməkdaşlığın mövcud olduğunu diqqətə çatdıraraq mən də son bir ildə bu əlaqələrin inkişafında iştirak etməyə nail olmuşam. Azərbaycan və Çex Respublikası arasında tarixi nöqteyi-nəzərdən ortaq cəhətlər çoxdur. Xalqlarımız arasında dostluğun möhkəmlənməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm", – deyə diplomat bildirib.

Milli Məclisin Azərbaycan-Çexiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elnur Allahverdiyev ölkələrimiz arasında əlaqələrin zəngin tarixi olduğunu qeyd edib. Bildirib ki, bu münasibətlərin zəngin tarixi ilə yanaşı, çoxlu perspektivləri də mövcuddur.

Tədbir daha sonra konsert proqramı ilə davam edib. Konsertdə Xalq artisti Fəxrəddin Kərimovun rəhbərliyi ilə Qara Qarayev adına Dövlət Kamera Orkestri, Çex Respublikası Plzen Konservatoriyasının professoru Roman Fedçuk, həmin konservatoriyanın tələbəsi, skripkaçı, respublika və beynəlxalq müsabiqələr laureatı Canel Nəcəfli çıxış edib.

Proqramda Fikrət Əmirov, Qara Qarayev, V.A.Motsart, L.V.Bethoven və A.Dvorjakın əsərləri səsləndirilib.

**Lalə**

# Qarabağ və Şuşa rənglərin işığında

## Muzey Mərkəzində qrup sərgisi keçiriləcək




Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə mayın 19-da Muzey Mərkəzinin sərgi salonunda rəssamların "Şuşa" adlı qrup sərgisi keçiriləcək.

Sərgi qədim Qarabağın, Şuşa şəhərinin illər öncəki və bugünkü vəziyyətini geniş tamaşaçı kütləsinə təqdim etmək, doğma yurdun gözəlliklərinə korifey və müasir rəssamların gözü ilə nəzər yetirmək imkanı yaratmaq məqsədilə reallaşacaq.

Sərginin ekspozisiyasında 30-a yaxın rəssam və heykəltəraşın müxtəlif üslub və texnikalarda işlənmiş 40-a yaxın rəngkarlıq, heykəltəraşlıq nümunələri, o cümlədən Dövlət Rəsm Qalereyasının fondundan seçilmiş əsərlər nümayiş olunacaq.

**L.Azəri**

# "Azərbaycanım" rəsm festivalının yekun sərgiləri açılacaq

"Azərbaycanım" VI Respublika Uşaq Rəsm Festivalı çərçivəsində elan olunmuş müsabiqənin yekun sərgiləri açılacaq.




Ənənəvi festival "Heydər Əliyev İli" çərçivəsində Mədəniyyət, Elm və Təhsil nazirlikləri, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti, Rəssamlar İttifaqı, Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə keçirilir.

Festival müsabiqəsinin sərgiləri mayın 11, 12, 13 və 15-də Xətai Sənət Mərkəzində növbəli şəkildə (yaş kateqoriyaları üzrə) təşkil olunacaq. Əsərlər çərçivələnmiş formada və şəxsi məlumatlar qeyd olunmaqla mayın 10-dək Xətai Sənət Mərkəzinə təqdim edilməlidir.

Mövzusu güllər olan müsabiqəyə respublika üzrə 500-dən çox məktəb və yaradıcılıq müəssisəsindən 2500-ə qədər uşaq, yeniyetmə və gənc qatılıb. Ümumilikdə 3000-dən çox əsərdən 800-ə yaxını sərgilənmək üçün seçilib.

Sərgilənən əsərlərin arasından hər yaş kateqoriyasını təmsil etməklə ümumilikdə 30 uşaq festivala dəvət olunacaq. Festival iştirakçıları hər yaş qrupu üzrə ayrıca olaraq diplom və hədiyyələrlə mükafatlandırılacaq.

# "Əbədi ömrün yüz ili"

## Heydər Əliyevin yubileyinə həsr olunmuş kitabın təqdimatı

*əvvəli səh. 1-də*

Qeyd edilib ki, kitab ilkin olaraq 1000 nüsxə tirajla çap olunub. Nəşrin bir çox bölgələrdə təqdimatının keçirilməsi nəzərdə tutulur.

AYB-nin sədri Xalq yazıçısı Anar Ulu öndər Heydər Əliyevi yaxından tanımaq və onun ölkəmiz qarşısındakı misilsiz xidmətlərini daha dərindən anlamaq baxımından kitabın nəşrini yüksək qiymətləndirib: "Heydər Əliyev incəsənət adamları ilə çox ünsiyyətdə olurdu, o, yazıçılara da xüsusi həssaslıqla yanaşırdı. Kitab çox maraqlıdır. Heydər Əliyevlə ünsiyyətdə olan adamların xatirələri xüsusən diqqət çəkir. Ölkədə ədəbi nəslin həyatında, inkişafında Heydər Əliyevin rolu danılmazdır. Kitabın yaradılmasında töhfələrini əsirgəməyən, əməyi keçən müəllifləri təbrik edirəm. Mədəniyyət Nazirliyinə xüsusi minnətdarlığımı bildirirəm. Düşünürəm ki, bu, bizim "Heydər Əliyev İli"nə kiçik töhfəmizdir".



AYB-nin birinci katibi Xalq yazıçısı Çingiz Abdullayev çıxışında qeyd edib ki, belə bir nəşrin ərsəyə gətirilməsi Heydər Əliyevin əziz xatirəsinə olan dərin ehtiramın göstəricisidir.

Xalq yazıçısı Elçin kitabın əhəmiyyətindən danışaraq qeyd edib ki, Ulu öndər Heydər Əliyevin incəsənət, ədəbiyyat adamlarına olan qayğısı danılmazdır. Yaradıcılığı həmin dövrlərə düşən sənət adamlarından elə biri yox idi ki, Heydər Əliyev onun sənəti ilə maraqlanmasın və şəxsən onunla ünsiyyətdə olmasın: "Onun şəxsiyyətinin miqyası çox böyükdür. O, bir tərəfdən Mstislav Rostropoviç ilə dostluq edirdi, eyni zamanda aşıq sənətinin inkişafına xidmət edənləri də unutmurdu. Bu da onun daxili aləminin zənginliyinin göstəricisi idi. O, incəsənətin bütün sahələrini duyurdu və qiymətləndirməyi bacarırdı. Ulu öndər deyirdi ki, gənclik dövründə Naxçıvanda elə tamaşa olmurdu ki, o tamaşaya gedib baxmasın. Heydər Əliyev daxilən sənət eşqi olan zəngin şəxsiyyət idi. O hətta müxtəlif pyeslərdə, əsərlərdə olan bir çox monoloqları əzbər bilirdi. 10 il mənim onu müşahidə etmək imkanım olub və Ümummilli lider özü böyük məktəb idi".

Xalq şairi Nəriman Həsənzadə, Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, Milli Məclisin deputatı Jalə Əliyeva, Xalq yazıçısı Elmira Axundova və digər çıxış edənlər Heydər Əliyevin Azərbaycan dövləti qarşısında tarixi xidmətlərindən danışıb, kitab haqqında fikirlərini bölüşüblər.

# "Mən azərbaycanlıyam" adlı ədəbi-musiqili tədbir

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə "Mən azərbaycanlıyam" adlı ədəbi-musiqili tədbir keçirilib.



Muzeyin Məktəblərlə və ictimaiyyətlə iş şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Nəzmiyyə Yigitoğlu Ulu öndər Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən, doğma Vətən və xalq qarşısında əvəzsiz tarixi xidmətlərindən danışıb.

Sonra məktəblilər və Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin tələbələri C.Məmmədquluzadə, M.Ə.Sabir, H.Cavid, S.Vurğun, M.Şəhriyar, M.Dilbazi və başqa şairlər və yazıçıların yaradıcılığından nümunələr qiraət ediblər.

# Tanınmış kino xadimi ilə kitabxanada görüş

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Əhməd haradadır?" filminin 60 illik yubileyi ilə əlaqədar ekran əsərində baş rollardan birini ifa edən Əməkdar artist, rejissor Elxan Qasımovla görüş təşkil edilib. Görüş kitabxana ilə "Dünya Azərbaycanlılarının Həmrəyliyinə Dəstək" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.




Kitabxananın İnformasiya və media ilə iş şöbəsinin müdiri Günay Həsənova, ictimai birliyin sədri Tofiq Əlizadə Elxan Qasımovun yaradıcılıq yolundan bəhs ediblər. Qeyd olunub ki, sənətkarın filmoqrafiyasında 40-dan çox ekran işi, o cümlədən rejissor kimi quruluş verdiyi "Biz qayıdacağıq", "Qocalar, qocalar" kimi filmlər var.

Xalq artisti Şamil Süleymanlı Elxan Qasımovla dostluq münasibətlərindən söz açıb, onun istedadlı həmkar, etibarlı dost olduğunu qeyd edib.

Azərbaycan Dövlət Rəqs Ansamblının bədii rəhbəri Xalq artisti Rüfət Xəlilzadə və Əməkdar artist Xanlar Bəşirov Elxan Qasımovun milli rəqslərimizin incəliklərinə bələd olan gözəl rəqqas, qayğıkeş müəllim olduğunu qeyd ediblər.

Tədbir boyunca "Əhməd haradadır?" filmindən fraqmentlər nümayiş olunub.

Sonda Elxan Qasımov tədbirin təşkilində əməyi keçən hər bir kəsə öz dərin təşəkkürünü bildirib.

# İslam ölkələrinin turizm üzrə əməkdaşlıq məsələləri müzakirə olunub

Mayın 3-də Bakıda Azərbaycanın sədrliyi altında İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olan 10 dövlətin işğaldan azad edilmiş ərazilərə dair Turizm üzrə Əlaqələndirmə Komitəsinin 8-ci iclası keçirilib.

İclasda İƏT-nin baş katibi Hissein Brahim Tahanın tədbir iştirakçılarına salamlama mətni səsləndirilib.



Toplantıya sədrlik edən Dövlət Turizm Agentliyinin aparatı rəhbəri Kənan Qasımov ölkəmizin turizm potensialının işğaldan azad olunmuş torpaqlar sayəsində daha da zənginləşdiyini, Qarabağın artıq beynəlxalq səyahətçilər üçün yeni turizm destinasiyası kimi tanıdıldığını diqqətə çatdırıb. O, iclasın ötən il Azərbaycanın sədrliyi ilə keçirilmiş İƏT Turizm Nazirlərinin 11-ci Konfransı çərçivəsində qəbul edilmiş mühüm qərarların icra vəziyyətinin və onların tətbiqi məsələlərinin müzakirəsi baxımından faydalı olduğunu qeyd edib.

Müzakirələr çərçivəsində İƏT-nin "Turizm Şəhəri Mükafatı" üçün mövcud qiymətləndirmə meyarları haqqında fikir mübadiləsi aparılıb, həmçinin təşkilat tərəfindən müvafiq olaraq 2023 və 2024-cü illər üçün "İslam dünyasının turizm paytaxtı" seçilmiş Türkiyənin Şanlıurfa, Özbəkistanın Xivə şəhərlərinin fəaliyyət planları nəzərdən keçirilib və qəbul edilib.

Toplantıda Şanlıurfanın Türkiyədə 6 fevralda zəlzələdən zərər gördüyü bildirilib və iştirakçılar İƏT-nin bütün müvafiq institutlarını şəhərin yaxın gələcəkdə yenidən qurulmasından sonra turizm potensialının bərpası məqsədilə səmərəli proqram və layihələr hazırlamağa çağırıblar.

Tədbirdə üzv ölkələr İƏT-nin noyabr ayında Qətərdə keçiriləcək sayca 3-cü turizm sərgisində fəal iştiraka dəvət olunub.

Əlaqələndirmə Komitəsinin 9-cu iclasının İƏT Turizm Nazirlərinin 12-ci Konfransı çərçivəsində Özbəkistanda keçirilməsi qərara alınıb.

# "Varlı ev"in sakinləri Sumqayıt səhnəsinə çıxacaq

Sumqayıt Dövlət Dram Teatrında Georgi Xuqayevin "Varlı ev" faciəsi əsasında eyniadlı tamaşa hazırlanacaq. Oxunuş mərhələsində olan əsərə teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmov quruluş verir.

Əsərdə hadisələr XX əsrin əvvəllərində Qafqaz vilayətlərindən birində cərəyan edir. Sərt qanunlarla öz evini idarə edən Beçir bəyin taleyi kontekstində eyni zamanda ictimai-siyasi mühitin mənzərəsi, mühariblərin gətirdiyi bəlalar, anlaşılmazlığın fəsadı, xarakterlərin mübarizəsi təsvir olunur.



Tamaşada Əməkdar artistlər İlahə Səfərova, İzaməddin Bağırov, Rauf Ağakişiyev, Cəlal Məmmədov, Xatirə Süleymanova, Sədaqət Nuriyeva, Elmira Kərimova, aktyorlar Dağlar Rüstəmov, Oqtay Mehdiyev, Habil Xanlarov, Məryəm Hüseynli, Elay Xasıyev və başqaları rol alıblar.

# Şəki teatrında "Ezop"un ağrıları




Şəki Dövlət Dram Teatrında braziliyalı müəllif Gilyerme Fiqeyredonun "Ezop" əsəri əsasında səhnələşdirilən eyniadlı tamaşanın məşqləri yekunlaşmaq üzrədir. Tamaşaya ictimai baxışın mayın ortalarında keçirilməsi nəzərdə tutulur.

Səhnə işinə teatrın baş rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimli quruluş verir. Quruluşçu rəssam Sahib Əhmədov, geyim üzrə rəssam Elman Rəşidov, bəstəkar Aleksey Yepifanov, baletmeyster Çingiz Novruzəliyevdir.

Tamaşada əfsanəvi yunan şairi, təmsilləri ilə məşhur olan Ezopun qul həyatından və azadlıq eşqindən, mübarizəsindən bəhs olunur.

Rolları Əməkdar artistlər Əbülfət Salahov, Xanlar Həşimzadə, aktyorlar Nazilə İmamhüseynova, Xəyal Salahov, Fidan Lətifova və Azad Məmmədov ifa edirlər.

# Mingəçevir teatrında "Dahilik divanı"

Mingəçevir Dövlət Dram Teatrında Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş "Dahilik divanı" adlı tamaşa-kompozisiya hazırlanır.



10-16 may tarixlərində təqdim olunacaq səhnə işinin ideya müəllifi Elçin Məhərrəmli, quruluşçu rejissoru Vüsal Mehrəliyev, musiqi tərtibatçısı Elnur Kərimovdur.

Teatrın bütün yaradıcı heyətinin iştirak edəcəyi kompozisiya Ulu öndərin mədəniyyət, səhiyyə, təhlükəsizlik, təhsil sahələrinə qayğısından, müasir Azərbaycanın tərəqqisindən və Prezident İlham Əliyevin ata vəsiyyətini yerinə yetirərkən nümayiş etdirdiyi qətiyyətindən bəhs olunur.

# Tarix yazan şəxsiyyət

## Bölgələrdə "Heydər Əliyev İli" ilə bağlı tədbirlər davam edir

Oğuz rayon Heydər Əliyev Mərkəzində Ümummilli liderin 100 illik yubileyi münasibətilə "Böyük ömrün anları" adlı film nümayiş olunub. Nümayişdən sonra Yaqublu kənd orta məktəbin şagirdləri dahi siyasətçiyə həsr edilmiş şeirlər söyləyiblər.

***

Daşkəsən rayon Heydər Əliyev Mərkəzində rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında Ulu öndərin yubileyinə həsr edilən inşa yazı müsabiqəsi təşkil olunub.

Göygöl rayon Mədəniyyət Mərkəzi və rayon Gənclər evinin birgə təşkilatçılığı ilə Heydər Əliyevin 100 illiyi münasibətilə tədbir keçirilib. Ulu öndərə həsr olunan mahnılar ifa edilib, şeirlər səsləndirilib.

***







Şirvan şəhər Uşaq musiqi məktəbi Ulu öndərin 100 illik yubileyi münasibətilə şəhər 21 saylı tam orta məktəbdə konsert proqramı təşkil edib.

Hacıqabul rayon Heydər Əliyev Mərkəzində rayonun gənc müəllimləri arasında "Heydər Əliyev kuboku" intellektual yarışının II yarımfinal mərhələsi keçirilib. Rayonun Muğan və Padar kənd məktəblərini təmsil edən komandalar final mərhələsinə vəsiqə qazanıb.

***

Masallı rayon Mahmudavar kənd Folklor evində "Zirvədədir əməllərin" adlı tədbir keçirilib. Bədii özfəaliyyət və "Halay" folklor kollektivləri maraqlı çıxışlar təqdim ediblər.

***

Bərdə Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi rayon və şəhərlərdə Ulu öndərin 100 illiyi münasibətilə keçirilən "Heydər Əliyev və mədəniyyətimiz" adlı bilik yarışmasına yekun vurulub. Bərdə RMİ-nin təşkilatçılığı, Qarabağ və Mərkəzi Aran regional təhsil idarələrinin iştirakı ilə keçirilən müsabiqənin məqsədi Ulu öndər Heydər Əliyev irsinin öyrənilməsi, təbliği, milli-mənəvi dəyərlərimizin gələcək nəsillərə aşılanmasıdır. Bərdə rayonunu təmsil edən "Zəfər lideri" komandası yarışmanın qalibi olub. Komanda Heydər Əliyevin 100 illik yubileyi münasibətilə hazırlanmış kubok və fəxri fərmanla təltif olunub. Digər komandalara təşəkkürnamə təqdim edilib.

Bərdə rayon Mədəniyyət Mərkəzində Heydər Əliyevin 100 illiyi münasibətilə "Kitab bilik və zəka mənbəyidir" adlı tədbir keçirilib. Mərkəzi kitabxananın təşkil etdiyi tədbirdə Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən rəsm və kitab sərgisi nümayiş olunub. Tədbir konsert proqramı ilə başa çatıb.

***





Ağcabədi rayon Ü.Hacıbəyli adına Uşaq incəsənət məktəbi, Gənclər üçün Təhsil Mərkəzinin Qarabağ regional ofisi, Ağcabədi "ASAN Xidmət" Mərkəzi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rayon şöbəsinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı konfrans keçirilib. Çıxışlarda bildirilib ki, Ümummilli lider tərəfindən gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılması təmin edilib. Heydər Əliyevin gənclər siyasəti Prezident İlham Əliyevin diqqət və qayğısı ilə daha mütəşəkkil formada davam etdirilir.

Laçın şəhər 2 nömrəli Uşaq musiqi məktəbində "Müstəqil Azərbaycanın banisi" adlı tədbir keçirilib. Tədbirdə "Laçın qayası" ansamblının müşayiəti ilə Ulu öndərə həsr olunan, vətənpərvərliyi tərənnüm edən mahnılar səsləndirilib.

***

Şamaxı Rayon İcra Hakimiyyəti və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycan: qüdrətli dövlətçilik, milli inkişaf və böyük Zəfər "adlı elmi-praktiki konfrans keçirilib. Konfrans iştirakçıları öncə Heydər Əliyevin həyatı və siyasi fəaliyyətindən bəhs edən kitab və fotoşəkillərdən ibarət sərgiyə baxıblar. Konfransda rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, Heydər Əliyev Mərkəzinin direktoru Könül Eyvazova, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi Cahangir Cahangirli, AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi Bəxtiyar Həsənov və başqaları çıxış ediblər.

***

Biləsuvar rayon Heydər Əliyev Mərkəzində "Azərbaycanın müstəqilliyi əbədidir, sarsılmazdır və dönməzdir!" mövzusunda elmi-praktik konfrans keçirilib. Qeyd olunub ki, müasir Azərbaycan dövlətinin memarı olan Heydər Əliyevin müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, demokratik, hüquqi dövlət quruculuğunun inkişafında müstəsna xidmətləri qədirbilən xalqımız tərəfindən daim uca tutulur, əziz xatirəsi ehtiramla anılır. Sonra Ulu öndərin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

***

Gəncə şəhər Nizami Gəncəvi adına Tarix-Diyarşünaslıq Muzeyində "Heydər Əliyev müstəqil Azərbaycanın memarıdır" adlı elmi-praktik konfrans keçirilib. "Heydər Əliyev və Azərbaycan mədəniyyəti", "Heydər Əliyev və Azərbaycan gəncliyi", "Tarix yazan şəxsiyyət", "Heydər Əliyev və Gəncə" adlı məruzələr dinlənilib. Bədii hissədə Gəncə şəhər Fikrət Əmirov adına 1 saylı Uşaq musiqi məktəbinin müəllim və şagirdləri vətənpərvər ruhlu mahnılar ifa ediblər.

Gəncə şəhər T.Hacıyev adına 2 nömrəli və Z.Qayıbov adına 5 nömrəli Uşaq musiqi məktəblərinin birgə təşkilatçılığı ilə Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert keçirilib. Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri, milli ritmlərdən ibarət kompozisiyalar maraqla qarşılanıb.

# Sərgi, müsabiqə, görüş, maarifləndirici tədbirlər...



Füzuli rayon Horadiz şəhər Muğam Mərkəzində Vətən müharibəsinin şəhid baş leytenantı Muxtar Qasımlının döyüş yoluna həsr olunmuş "Qəhrəman Muxtar Qasımlı" adlı sənədli film nümayiş olunub. Tədbirdə əvvəlcə şəhid Muxtar Qasımlının fotoşəkillərindən, orden və medallarından ibarət sərgiyə baxış olub. Çıxış edənlər şəhid haqqında xatirələrini söyləyiblər. Sonra tədbir iştirakçıları filmi izləyiblər.

***

Abşeron rayon Mehdiabad qəsəbə Uşaq musiqi məktəbinin kamança ixtisası üzrə müəllimi Bayraməli Əliyev Milli Muğam Müsabiqəsində (24-26 aprel) instrumental ifaçılıq kateqoriyasında III yerə layiq görülüb, diploma təltif olunub.

Elm və Təhsil Nazirliyinin dəstəyi, 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin təşkilatçılığı ilə türkdilli dövlətlərin məktəbliləri arasında "Xəmsə" möcüzəsi" adlı incəsənət müsabiqə-festivalı keçirilib. Müsabiqə 5 nominasiya üzrə 2 yaş qrupunda (11-14 və 15-17 yaş) təşkil olunub. C.Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzində rəsm kursunun üzvü Fidan Babayeva festivalın respublika mərhələsinin 15-17 yaş qrupunda dekorativ-tətbiqi sənət nominasiyası üzrə I yerə layiq görülüb.

Qubadlı rayon F.Hüseynov adına Mahmudlu kənd Uşaq musiqi məktəbinin tar ixtisası üzrə 2-ci sinif şagirdi Abbas Xəlilov "Astana stars" (Qazaxıstan) beynəlxalq festivalı çərçivəsində keçirilən vokal-instrumental müsabiqəsində I dərəcəli laureat adını qazanıb və diploma təltif olunub.

***

Ağstafa rayon Mədəniyyət Mərkəzində Beynəlxalq Rəqs Gününə (29 aprel) həsr olunmuş "Rəqs – mənəvi dünyam" adlı tədbir keçirilib. Tədbirdə mərkəzin könüllüləri, Ağstafa şəhər Uşaq musiqi məktəbi və Ağstafa rayon Uşaq-gənclər inkişaf mərkəzinin yetirmələri konsert proqramı ilə çıxış ediblər.

Tovuz rayon Düz Qırıqlı kənd Uşaq musiqi məktəbinin kollektivi Vətən müharibəsi qazisi, Əyyublu kənd sakini Nicat Məmmədovu evində ziyarət edib, ailəsi ilə həmsöhbət olub.

***



Goranboy Dövlət Rəsm Qalereyasında isə "Narkotikə yox deyək!" mövzusunda sərgi təşkil edilib. Qeyd olunub ki, narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyada son dərəcə mürəkkəb ictimai təhlükəli hadisədir. Buna görə də cəmiyyətdə və yaxın ətrafımızda sağlam həyat tərzini təbliğ etmək, zərərli vərdişlərə qarşı profilaktik tədbirlər görmək lazımdır.

***



Ucar Tarix-Diyarşünaslıq Muzeyi "Muzey sizin bir addımlığınızda" adlı layihəyə başlayıb. Layihənin əsas məqsədi muzeyin əsas fondunda toplanmış əşyaların rayonun ucqar kəndlərində nümayiş etdirilməsi və daha çox əhalinin rayon muzeyi, burada toplanmış əşyalar haqqında məlumat əldə etməsidir. Layihə çərçivəsində ilk sərgi Ucar rayon Rəstəcə kənd orta məktəbində təşkil edilib. Sərgidə muzeyin əsas fondundan ən maraqlı və unikal əşyalar nümayiş etdirilib.

***

Lənkəran şəhər Mədəniyyət Mərkəzinin Göyşaban kənd Mədəniyyət evi və Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə "Ağ ölüm" adlı maarifləndirici tədbir keçirilib. Çıxışlarda narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin yaratdığı problemlərdən, onun fəsadlarından danışılıb. Gənc nəsli "ağ ölüm"dən qorumağın yolları və bu təhlükəli bəlaya qarşı mübarizədə cəmiyyətin bütün üzvlərinin iştirakının vacibliyi qeyd olunub.

***

Ağdaş Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə həvəskar rəssamların əl işlərindən ibarət rəsm sərgisi keçirilib.

**Hazırladı: N.Məmmədli**

# Heydər Əliyev və Azərbaycan kinematoqrafiyası

## Tədbirdə "Ata yolu" filmi nümayiş etdirilib

Mayın 3-də Nizami Kino Mərkəzində "Heydər Əliyev və Azərbaycan kinematoqrafiyası" adlı tədbir keçirilib. Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı (ARKİ) tərəfindən Ulu öndərin 100 illiyi münasibətilə keçirilən tədbirdə tanınmış kino xadimləri iştirak ediblər.



ARKİ-nin icraçı katibi Əməkdar incəsənət xadimi Cəmil Quliyev çıxış edərək Ulu öndərin Azərbaycan kinosuna diqqət və qayğısından danışıb.

ARKİ-nin sədri Xalq artisti Şəfiqə Məmmədova Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb: "Onunla ilk görüşüm 1970-ci ilə təsadüf edir. Həmin il martın 6-da paytaxtın teatr həyatında əlamətdar hadisə yaşandı. Hüseyn Cavidin "Xəyyam" tamaşasının premyerası keçirildi. Bizim üçün ən əlamətdar hadisə isə növbəti tamaşaların birində Azərbaycanın rəhbəri Heydər Əliyevin ömür-gün yoldaşı Zərifə xanım və oğulları İlhamla birlikdə teatra gəlməsi oldu. Heydər Əlirza oğlu tamaşadan sonra Hüseyn Cavidin qızı Turan xanımı, məni və Həsən Turabovu səhnə arxasına söhbətə dəvət elədi, uğurlu tamaşaya görə təşəkkürünü çatdırdı. Mən həmin görüşdən aldığım təəssüratı yəqin ki, heç zaman unutmaram".

Xalq artisti Oqtay Mirqasımov, Əməkdar incəsənət xadimləri Ayaz Salayev, Aydın Kazımzadə çıxış edərək Heydər Əliyevin Azərbaycan kinosunun inkişafı ilə bağlı xidmətlərindən söz açıblar.

Xalq artisti Vaqif Mustafayev Ulu öndər haqqında silsilə sənədli filmlərinin ərsəyə gəlməsindən, onunla çəkiliş zamanı olan xatirələrindən danışıb.

Sonra Vaqif Mustafayevin Ulu öndərə həsr edilmiş "Ata yolu" filmi göstərilib. Ekran işi rejissorun Heydər Əliyevə həsr etdiyi 12 seriyalı film silsiləsinə daxildir.

Filmdə xalqımızın qədim tarixinə qısa ekskurs edilir. XX əsr Azərbaycanının ictimai-siyasi mühitindən bəhs olunur, ölkəmizin bugünkü mövqeyinin bərqərar olmasında, siyasi, iqtisadi uğurlar qazanmasında Ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri diqqətə çatdırılır. Ekran əsərində Ulu öndərin başladığı inkişaf yolunda onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlar da əks olunub.

Filmin operatorları Arçil Axvlediani, Lomer Axvlediani, Cimşer Kristesaşvili, Valentin Piqanov, Martinş Punans, Əlövsət Aslanov, Elçin Əliyev, rəssamı Ağarəhim Əliyev, bəstəkarı Nazim Əhmədov, prodüseri Valeri Ruzindir.

**Lalə Azəri**



Mayın 2-də Qara Qarayevin Ev-Muzeyində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş konsert keçirilib.

## Qara Qarayevin evində

## Ulu öndərin yubileyinə həsr edilmiş konsert

Konsertdən öncə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Alla Bayramova giriş sözündə Ulu öndərin musiqi mədəniyyətimizin inkişafında rolu, incəsənət xadimlərinə göstərdiyi diqqət və qayğısı haqqında danışıb.

Sonra Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dosenti Züleyxa Abdulla və onun istedadlı tələbələri – Ülkər Rüstəmli, Arzu İsmayılova, Nəzrin Bayramova və Şəms Əsgərovanın ifasında klassik musiqi əsərləri səsləndirilib.

İ.S.Bax, F.Şopen, F.List, K.Debüssi, M.Balakirev, S.Raxmaninovun əsərlərinin ifa olunduğu musiqi axşamında həmçinin bəstəkar Xəyyam Mirzəzadənin "Ohne" fortepiano pyesi (sağ əllə ifa üçün) iyirmi illik aradan sonra ilk dəfə təqdim edilib.

Konsert proqramı alqışlarla qarşılanıb.

# Milli ədəbiyyatda dövlətçilik məfkurəsinin intibahı

## Heydər Əliyevin 100 illiyinə ithaf olunan kitab işıq üzü görüb

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Azərbaycan ədəbiyyatında vətən və dövlətçilik məfkurəsinin intibahı. Heydər Əliyevdən İlham Əliyevə" monoqrafiyası nəşr edilib. Ümummilli lider Heydər Əliyevin 100 illiyinə ithaf olunan nəşr institutun Elmi şurasının qərarı ilə çap edilib.

Kitabda Heydər Əliyevin bədii ədəbiyyatda parlaq obrazının yaradılması, müstəqil dövlətçilik ideallarının tərənnümü məsələlərindən bəhs olunur.

Monoqrafiyanın ideya müəllifi və elmi məsləhətçisi akademik İsa Həbibbəyli, elmi redaktor AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, məsul redaktor filologiya elmləri doktoru Elnarə Akimovadır.

Kitabda akademik İsa Həbibbəylinin "Böyük ədəbiyyat siyasəti və möhtəşəm bədii obraz", AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlunun "Heydər Əliyevin tarixi obrazı və ədəbiyyat", filologiya üzrə fəlsəfə doktorları, dosentlər – Lalə Həsənovanın "Beynəlmiləl məfkurədən milli ideyaya doğru: müasir nəsrdə Heydər Əliyev obrazı (bədii-sənədli nəsr və publisistika)", Aygün Bağırlının "Uşaq ədəbiyyatında və dramaturgiyada Heydər Əliyevin bədii obrazı", Əlizadə Əsgərlinin "Heydər Əliyev: dünya sivilizasiyasında elit şəxsiyyət" və filologiya elmləri doktoru Elnarə Akimovanın "Vətən və dövlət məfkurəsinin intibahı: Heydər Əliyevdən – İlham Əliyevə" məqalələri yer alıb.

460 səhifədən ibarət monoqrafiya "Elm" nəşriyyatında işıq üzü görüb.

# Niyazinin Mənzil-Muzeyində fortepiano musiqisi axşamı

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin Mənzil-Muzeyi mayın 3-də Ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın 100 illik yubileylərinə həsr olunmuş "Fortepiano musiqisi axşamı" adlı konsert proqramı təşkil edib.





Konsertdə P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının məzunu, beynəlxalq müsabiqələr laureatı Nazxanım Dadaşova və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının tələbələri Ülkər Rüstəmli, Nəzrin Bayramova, Şəms Əsgərova fortepianoda Azərbaycan, Avropa və rus bəstəkarlarının əsərlərini ifa ediblər.

İfalar muzeyin kolleksiyaları əsasında hazırlanmış "Heydər Əliyev və mədəniyyətimiz" mövzusunda videoçarxla müşayiət olunub.

## Ulu öndərin 100 illiyinə həsr olunan konsert

Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında Azərbaycan Memarlıq və İnşaat Universiteti (AzMİU) Azad Həmkarlar İttifaqı Komitəsinin təşəbbüsü və təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunan konsert proqramı təqdim edilib.

Konsert proqramı Ulu öndərin ictimai-siyasi fəaliyyətini əks etdirən videoçarxın nümayişi ilə başlanıb.

Sonra instrumental ansamblın müşayiəti ilə Xalq artistləri Gülyaz Məmmədova, Heydər Qəniyev, solistlər Fəxri Kazım-Nicat, Aynur İsgəndərova və başqaları Ulu öndərin sevdiyi, eləcə də ona həsr olunan mahnılar ifa ediblər. Rəqs qrupunun təqdimatında milli rəqslərimiz təqdim olunub. İfaçıların çıxışları dinləyicilər tərəfindən alqışlarla qarşılanıb.

## Kuklasevərlərə "Leyləyin hədiyyəsi"

Azərbaycan Dövlət Kukla Teatrı ibtidai sinif şagirdlərinin yaz tətili günlərində onlar üçün tamaşa sürprizi edib. Mayın 3-də teatrda "Leyləyin hədiyyəsi" adlı birhissəli uşaq tamaşasının premyerası olub.

Vaxtaşırı türk xalqlarının folklor nümunələrini yeni səhnə həllində balacalara təqdim edən yaradıcı heyət bu dəfə özbək xalq nağılına üz tutub. "Vur, dəyənək!" adlı ibrətamiz məişət nağılı əsasında tamaşanın səhnələşdirəni və quruluşçu rejissoru Əməkdar artist Qurban Məsimov, quruluşçu rəssamı Rəvanə Yaqubovadır.

Özbək mahnı və rəqslərindən də istifadə edilən "Leyləyin hədiyyəsi" tamaşasında uşaqlara dürüstlük, qətiyyət və mübarizlik aşılanır.

## Türkiyəli mütəxəssis BXA-da ustad dərsi keçib



Türkiyənin Sakarya Universiteti Dövlət Konservatoriyasında Türk xalq bölümünün professoru Gülbeyaz Kürşad Bakı Xoreoqrafiya Akademiyasında (BXA) ustad dərsi keçib.

Ustad dərsində akademiyanın tam orta təhsil pilləsinin şagirdləri, orta ixtisas təhsili və bakalavr pilləsinin tələbələri iştirak ediblər.

Gülbeyaz Kürşad Türkiyənin müxtəlif bölgələrinə xas olan xalq rəqslərindən ölkənin şimal-qərb bölgəsində məşhur olan "Damad halayı" ("Kürəkən halayı"), Diyarbəkir bölgəsinə məxsus "Devilo" rəqsi və İzmir regionunun məşhur "Harmandalı" rəqsi ilə bağlı məlumat verib, element və hərəkət qaydalarını əyani şəkildə göstərib. Bildirilib ki, adıçəkilən rəqslərdəki ritmik əl, qol və ayaq hərəkətləri xalqın milli xüsusiyyətlərini özündə təcəssüm etdirir.

Ustad dərsini BXA-nın İdarə heyəti, kafedra müdirləri və müəllim-tələbə heyəti izləyib.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (30)

### 1982-ci il 23 mart

Bakıda böyük dramaturq Cəfər Cabbarlının heykəlinin və ev-muzeyinin açılışı keçirilib. Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev, respublikanın digər rəhbər şəxsləri, xarici qonaqlar mərasimlərdə iştirak ediblər. Heydər Əliyev C.Cabbarlının abidəsinin (heykəltəraş Mirələsgər Mirqasımov, arxitektor Yuzef Qədimov) açılış mərasimində çıxış edib.

*"...Baharın bu gözəl çağında biz Azərbaycan mədəniyyətinin görkəmli xadimi Cəfər Cabbarlının abidəsini açırıq... Cabbarlı yaradıcılığı qədim Azərbaycan torpağının yeniləşməsinin, çiçəklənməsinin parlaq rəmzi oldu. Cabbarlının həyatı öz böyük bədii istedadını xalqa xidmət göstərməyə həsr etmiş möhkəm əqidəli və alovlu vətəndaşın həyatıdır.*

*...Şəxsiyyəti dövr, zaman yetişdirir. Lakin şəxsiyyət də dövrün, zamanın ən mühüm xüsusiyyətlərini ifadə edərək onu səciyyələndirir. Cəfər Cabbarlı məhz belə xadim idi... Şair, nasir, dramaturq Cabbarlının yaradıcılığı çoxşaxəlidir. O, müasir Azərbaycan dramaturgiyasının inkişafının əsas istiqamətlərini müəyyən etmişdir, Azərbaycan xalqının və bir çox başqa xalqların teatr mədəniyyətini zənginləşdirən qiymətli töhfələr vermişdir. Mirzə Fətəli Axundovun və Cəlil Məmmədquluzadənin böyük ənənələrini inkişaf etdirib zənginləşdirən Cabbarlı teatr yaradıcılığının həqiqi novatoru olmuş, Azərbaycan səhnəsində bu gün gözəl səmərə verən yeni ənənələrin əsasını qoymuşdur.*

*Azərbaycan kino sənətinin təşəkkülü, o illərin dram və opera səhnələrinin ən yaxşı tamaşaları, parlaq publisistika və dərin professional teatr tənqidi Cabbarlının adı ilə bağlıdır. Bu mühüm yaradıcılıq sahələrinin hər birində Cabbarlı həqiqi novator olduğunu göstərdi... Cabbarlının simasında Azərbaycan mədəniyyəti elə bir yeni tipli sənətkar tapdı ki, onun üçün ədəbiyyat və sənət yalnız real həyatı əks etdirmək vasitəsi deyildi, həm də həyatın mürəkkəb inkişafına fəal müdaxilə etmək vasitəsi idi...*

*Əsl milli yazıçı olan, xalq hikmətindən bəhrələnən Cəfər Cabbarlı doğma mədəniyyəti rus və dünya klassikasının ənənələri və bədii-estetik nailiyyətləri ilə zənginləşdirmişdir. O, ustad bir tərcüməçi kimi böyük yaradıcılıq rəşadəti göstərərək doğma Azərbaycan mədəniyyətinin üfüqlərini genişləndirmiş, Lev Tolstoyun qüdrətini və dühasını, Şekspirin fəlsəfi dərinliyini, Şillerin romantizmini, Maksim Qorkinin həqiqətpərvər yaradıcılığını Azərbaycan oxucusuna çatdırmışdır.*

*...O, az yaşasa da, qoyub getdiyi zəngin ədəbi irs Azərbaycan ədəbiyyatı və incəsənətinin tarixində bütöv bir dövr təşkil edir. Cabbarlının ədəbi irsi xalqın qəlbində və şüurunda, müasirlərimizin adlarında və əməllərində, yeni-yeni oxucu və tamaşaçı nəsillərinə sənətkarın mənəvi təsirinin zəifləmək bilməyən guşəsində yaşayır. Bax, budur görkəmli sənətkarın ölməzliyi... Əbədiyyət və abidə bir kökdən olan sözlərdir. Bu gün açdığımız abidə bir daha sübut edir ki, Cəfər Cabbarlı xalqın qəlbində və hafizəsində əbədi yaşayacaq".*

### 1982-ci il 26 mart

Heydər Əliyev Azərbaycan Dövlət Filarmoniyasında Qara Qarayevin yaradıcılığına həsr olunmuş konsertdə iştirak edib.

### 1982-ci il 3 aprel

Respublika komsomolunun (Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı) XXXI qurultayında nitq söyləyən Heydər Əliyev gənclərin vətənpərvərlik ruhunda tərbiyəsində mədəniyyətin rolundan da söz açıb.

*"...Siyasi mahnının, vətənpərvərlik, vətəndaşlıq məzmunlu mahnıların təbliğini xeyli yaxşılaşdırmaq lazımdır...*

*Azərbaycan adları dünya ədəbiyyatı xəzinəsinə daxil olan Nizami, Xaqani, Tusi, Füzuli, Nəsimi, Natəvan, Vaqif, M.F.Axundov, Sabir, C.Məmmədquluzadə, M.S.Ordubadi, C.Cabbarlı, Üzeyir Hacıbəyov, S.Vurğun və bir çox başqa yazıçıların, şairlərin, bəstəkarların, alimlərin vətənidir. Gənclərimiz də korifeylərin yaradıcılığına, Azərbaycan xalqının çoxəsrlik tarixi ərzində yaradılan bütün mənəvi sərvətlərə yaxşı bələd olmalıdırlar. Lakin böyük mənəvi irsə dərin ehtiram bəsləməklə yanaşı, Azərbaycan tarixinin şanlı səhifələri ilə fəxr etməklə yanaşı qeyd etməliyik ki, xalqın inkişafının ən gözəl dövrü keçmişdə yox, indidə və gələcəkdədir.*

*Tarixi, mənəvi irsə diqqətlə yanaşmaq lazımdır. Biz keçmişin təcrübəsinə və nailiyyətlərinə daha da irəliləmək, inkişaf etmək üçün müraciət edirik. İncəsənət ustalarının vəzifəsi məhz xalqımızın yaratdığı mənəvi sərvətləri yaradıcılıqla saf-çürük etməkdən, bunlarla müasir mədəniyyətimizi zənginləşdirməkdən ibarətdir. Vəzifə ölkəmizin qardaş xalqlarının mədəniyyətinin, dünya mədəniyyətinin nailiyyətlərindən geniş istifadə etməkdən ibarətdir – əsl mənəvi tərəqqinin yolu bax, budur...".*

***

Uzun illər mədəniyyət sahəsində fəaliyyət göstərənlər dövlət tərəfindən qiymətləndirilirdi.

### 1982-ci il 11 yanvar

Azərbaycan musiqi-ifaçılıq sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq Əməkdar incəsənət xadimi, tarzən, bəstəkar Ağası Məşədibəyov, arxitektura sahəsində uzun illər səmərəli işlədiyinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq Azərbaycan Dövlət Sənaye Müəssisələrini Layihələşdirmə Baş İnstitutun direktoru Sərdar Sərdarov Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif ediliblər.

### 1982-ci il 9 fevral

Azərbaycan estrada sənətinin inkişafında xidmətlərinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar olaraq Əməkdar artist Yunus Ağayev Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib.

**Hazırladı: V.Orxan**

***(davamı var)***

№34 (2003)
5 may 2023
www.medeniyyet.az

# Cümhuriyyət "Azərbaycan"ının tam külliyyatı: VI cild işıq üzü görüb

Məlum olduğu kimi, ADA Universitetinin təşəbbüsü və dəstəyi ilə Cümhuriyyət dövrü "Azərbaycan" qəzetinin (1918-1920) tam külliyyatının nəşri həyata keçirilir. 20 cilddə nəzərdə tutulan toplunun VI cildi çapdan çıxıb.




VI cilddə qəzetin 1919-cu ilin mart ayı üzrə nüsxələri – 126-147-ci nömrələri (2-31 mart) yer alıb.

Qəzetin bu cilddə toplanan nömrələrində 1918-ci ilin Mart soyqırımının birinci ildönümü ilə bağlı materiallara geniş yer verilib. Eyni zamanda o dövrdə Azərbaycanın, regionun və beynəlxalq aləmin gündəm mövzularına dair müxtəlif səpkili informasiyalar diqqətə çatdırılıb.

Qəzetin mətnlərini filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli və filoloq, tərcüməçi Azad Ağaoğlu transliterasiya edib.

Xatırladaq ki, "Azərbaycan" qəzetinin tam külliyyatının bundan öncə çapdan çıxan I cildi 1918-ci ilin sentyabr-oktyabr aylarını, II cild 1918-ci ilin noyabr, III cild 1918-ci ilin dekabr, IV cildi 1919-cu ilin yanvar, V cild 1919-cu ilin fevral ayı üzrə nüsxələri əhatə edib.

# Həsən Seyidbəylinin nəsr yaradıcılığı haqqında

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi şurasının qərarı ilə "Həsən Seyidbəyli: həyatı və nəsr yaradıcılığı" kitabı çap edilib. Kitabın müəllifi institutun baş elmi işçisi filologiya elmləri doktoru, dosent Baba Babayevdir.

Monoqrafiyanın elmi məsləhətçisi və "Azərbaycan kinosunun əfsanəsi – publisist bədii nəsrin yaradıcısı" başlıqlı ön sözün müəllifi akademik İsa Həbibbəylidir. Kitabın redaktoru filologiya elmləri doktoru Əlizadə Əsgərli, rəyçisi filologiya elmləri doktoru, professor Təyyar Salamoğludur.

Monoqrafiyada görkəmli yazıçı, kinodramaturq, ssenarist, kinorejissor, publisist Həsən Seyidbəylinin çoxcəhətli yaradıcılığı müasirlik duyğusunun gücü ilə elmi səviyyədə araşdırılır.

Nəşr "Həsən Seyidbəylinin həyatı və ədəbi-ictimai fəaliyyəti", "Yazıçının yaradıcılıq axtarışları: hekayələrində sosial həyatın bədii əksi", "Həsən Seyidbəyli yaradıcılığının nəsr təkamülü: povest və romanlarında sosial həyat və onların üslub fərdiyyətləri" fəsillərindən ibarətdir.

# "İgidə medalı yataqda verməzlər..."

## Qəhrəman zabit sağalıb xidmətini davam etdirmək istəyirdi

Ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən igidlərimizi oxucularımıza tanıtmaqda davam edirik. Bu dəfə 2016-cı il Aprel döyüşlərinin şəhid kapitanı Nəcməddin Savalanovu yada salırıq.

Nəcməddin Akif oğlu Savalanov 1985-ci il fevralın 26-da İmişli rayonunun Göbəktala kəndində anadan olub. 6 yaşı olanda atası avtomobil qəzasında vəfat edir. Nəcməddin A.Atayev adına Göbəktala kənd tam orta məktəbində təhsil alır. Uşaqlıqdan hərb sahəsinə xüsusi maraq göstərir, hərbçi olmaq istəyirdi. Bu həvəslə C.Naxçıvanski adına Hərbi liseyə qəbul olunur. Məzun olduqdan sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirir. Mühəndis qoşunları bölməsi üzrə məktəbi bitirib leytenant rütbəsi ilə Səngəçaldakı N saylı hərbi hissədə taqım komandiri vəzifəsində xidmətə başlayır. Hərbi bilikləri dərindən mənimsəməsi, nizam-intizamı, məsuliyyəti ona xidmətdə uğurlar qazandırır. Nəcməddin daha sonra Tərtər rayonundakı N saylı hərbi hissəyə qərargah rəisi təyin olunur.

2016-cı il aprelin 2-nə keçən gecə Ermənistan silahlı qüvvələri genişmiqyaslı hərbi təxribatlar törədir. Yüksək döyüş hazırlıqlı hərbi birləşmələrimiz düşmənə layiqli cavab vermək üçün əks-həmlə əməliyyatına başlayır. Hərbi əməliyyatlarda Nəcməddin Savalanov da təcrübəli zabit kimi yaxından iştirak edir. Dördgünlük müharibənin ilk günündə ayağından və çiynindən ağır güllə yarası alır. Müalicə üçün Bakıya – Silahlı Qüvvələrin Baş Klinik Hospitalına gətirilir. Həkimlərin səyinə baxmayaraq, 37 gündən sonra – mayın 8-də burada şəhadətə yüksəlir. Bir gün sonra doğulduğu Göbəktala kənd qəbiristanlığında torpağa tapşırılır.



Şəhidin qardaşı Pərviz Savalanov deyir ki, hərbçi olan əmiləri Birinci Qarabağ müharibəsində iştirak edib: "Nəcməddinin də uşaq yaşlarından hərbə həvəsi məhz buna görə yaranmışdı. Əmilərim evə gələndə onların papaqlarını başına qoyar, güzgünün qarşısında dayanıb özünə baxardı. Qardaşım fevralın 26-da anadan olub. Xocalı faciəsi doğum gününə düşdüyünə görə heç vaxt ad gününü qeyd etmirdi. Nəcməddin Aprel döyüşlərindəki şücaətinə görə ölkə başçısının müvafiq sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltif olunmuşdu. Həmin medalı hospitalda ona təqdim etmək istəyəndə belə demişdi: "İgidə, hərbçiyə medalı yataqda verməzlər. Qoy sağalım, iş yerimdə verərsiniz". Təəssüf ki, qardaşım, sağalmadı... Mayın 9-da dəfn günü həmin medal oğluna təqdim olundu".

Anası Ramilə Savalanovanın sözlərinə görə, Nəcməddinin uşaqlıqdan gözəl musiqi duyumu da olub: "Şeir yazırdı, bədahətən gözəl meyxana deməyi vardı. Onun qulluq etdiyi Tərtər rayonunda sakinlərin toy məclisində iştirak etdiyini sosial şəbəkələrdə izləmişdim. Həmin toyda söylədiyi meyxanada da vətənpərvərliyi açıq-aydın duyulur. Hər addımbaşı Ali Baş Komandanın adını çəkir, döyüşə hər an hazır olduqlarını deyir. Oğlum döyüşə hər an hazır olduğunu öz şəhadəti ilə göstərdi. Allah Nəcməddinin timsalında bütün şəhidlərimizə rəhmət eləsin".

Nəcməddin Savalanovun Leyla və Nuray adlı iki qızı və Adəm adlı oğlu Vətənə yadigar qalıb. 2017-ci ildə qəhrəman zabit haqqında "Şəhidliyə aparan yol" adlı film çəkilib.

Nəcməddin Savalanov və onun kimi bütün Aprel şəhidlərimizin qəhrəmanlığı 2020-ci ilin Vətən müharibəsindəki tarixi Zəfərimizin təməli idi. Qüdrətli Ordumuz 44 gün ərzində işğal altındakı torpaqlarımızı azad etdi, ərazi bütövlüyümüz bərpa olundu. Bu gün bütün şəhidlərimizin ruhu rahatlıq tapıb.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Aktyor Rəzzaq Məmmədov vəfat edib



Uzun illər Dövlət Gənclər Teatrında və Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında çalışmış aktyor Rəzzaq Məmmədov mayın 3-də, ömrünün 75-ci ilində vəfat edib.

Rəzzaq Qüdrət oğlu Məmmədov 2 noyabr 1948-ci ildə Lənkəran rayonunun Liman qəsəbəsində anadan olub. 1978-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki ADMİU) Dram və kino aktyorluğu fakültəsini bitirdikdən sonra institutun Tədris teatrında fəaliyyətə başlayıb. 1989-cu ildən Dövlət Gənclər Teatrında çalışıb. Teatr 2009-cu ildə Dövlət Gənc Tamaşaçılar Teatrına birləşdiriləndən sonra 2021-ci ilədək burada fəaliyyətini davam etdirib. "Leyli və Məcnun", "Müsyö Jordan və dərviş Məstəli şah", "Mənim ağ göyərçinim", "Ağ ölüm", "Şeyx Sənan", "Sarıköynəklə Valehin nağılı" kimi tamaşalarda bir-birindən yaddaqalan rollar ifa edib.

Aktyor kinoda da çəkilib, "Yalan", "Biz qayıdacağıq", "Dolu", "Sübhün səfiri", "Nar bağı" və s. filmlərdə rol alıb.

Rəzzaq Məmmədov doğulduğu Lənkəran rayonunun Liman qəsəbəsində dəfn edilib.

Allah rəhmət eləsin.

# Sərrast tuşlayıcı

## Lənkəranda şəhid qəhrəmanın xatirəsi anılıb

Tariximizə şanlı Zəfərlə həkk olunan 44 günlük Vətən müharibəsində ərazi bütövlüyümüz uğrunda canını və qanını əsirgəməyən qəhrəman oğullardan biri də şəhid əsgər Sənan Ağazadədir.

Sənan Nizami oğlu Ağazadə 2000-ci il may ayının 1-də Lənkəranın Göyşaban kəndində dünyaya göz açıb. 2006-cı ildə M.F.Səhban adına Göyşaban kənd məktəbinin 1-ci sinfinə gedib. O, 2017-ci ildə S.Kazımbəyov adına Lənkəran şəhər 6 nömrəli tam orta məktəbi bitirib. 2019-cu ildə Vətən qarşısında əsgəri borcunu yerinə yetirməyə başlayıb.

2020-ci ilin 27 sentyabrında İkinci Qarabağ müharibəsi başlayanda Sənan artıq hazır döyüşçü idi və torpaqlarımızın düşmən əsarətindən qurtulması üçün o da silahdaşları kimi ön cəbhədə yerini almışdı. O, Füzuli rayonu istiqamətində gedən ağır döyüşlərdə minaatan batareyasında tuşlayıcı kimi fəaliyyət göstərib. Hədəfi sərrast nişan alması sayəsində düşmənin bir neçə hərbi texnikası və 30-dan çox canlı qüvvəsi məhv edilib.

Bir neçə yaşayış məntəqəmizin yağıdan azad edilməsində iştirak edən Sənan Ağazadə oktyabrın 14-də şəhidlik zirvəsinə ucalıb. Dövlət başçısının müvafiq sərəncamları ilə "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görülüb.




Mayın 1-də Sənan Ağazadənin doğum günündə, Lənkəran Şəhər İcra Hakimiyyətinin əməkdaşları, yerli ictimaiyyətin nümayəndələri şəhidin məzarını ziyarət edib, üzərinə tər çiçəklər düzüblər. Ziyarətçilər daha sonra şəhidin ailə üzvlərinə baş çəkiblər. Söhbət zamanı Sənanın Vətənə, yurduna sonsuz sevgisindən, müharibədə göstərdiyi igidlikdən danışılıb. Bildirilib ki, dövlətimiz, xalqımız var olduqca torpaqlarımızı canı-qanı bahasına düşməndən azad edən Vətən övladlarının əziz xatirəsi daima uca tutulacaq, hər zaman hörmətlə anılacaq.

**Zəfər Orucoğlu**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Elmi-texniki kitabların saxlanc yeri



Ölkəmizdə yaşı bir əsrdən çox olan, zəngin fəaliyyət yolu keçmiş kitabxanalar var. Əqli Mülkiyyət Agentliyinin tabeliyindəki Respublika Elmi-Texniki Kitabxanası (RETK) onlardan biridir. Paytaxtın Mərdanov qardaşları küçəsi 124 ünvanında yerləşir. Kitabxananın tarixi, fondu və fəaliyyəti ilə yerində tanış olduq.

RETK 1920-ci ildə "Neftçilər" klubunun kitabxanası kimi yaradılıb və 1930-cu ilədək ancaq klubun üzvlərinə xidmət edib. Həmin dövrdə kitabxananın cəmi 450 nüsxə kitab fondu və 300-dək oxucusu olub. 30-cu illərdə texniki ədəbiyyata tələbat artdığına görə bu sahə ilə bağlı kitabxanaların yaradılması zərurəti də meydana çıxmışdı. 1930-cu ildə "Neftçilər" klubunun kitabxanası əsasında Azneft Mərkəzi Elmi və Texniki Kitabxanası və ya İstinad Kitabxanası yaradılıb. 1957-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Elm və Texnika Komitəsinin tabeliyində Respublika Elmi-Texniki Kitabxanasına çevrilib. 1993-cü ildən Azərbaycan Respublikası Dövlət Elm və Texnika Komitəsinin, 2001-ci ildən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərib.

RETK 2018-ci ilin 30 iyul tarixindən Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində fəaliyyətini davam etdirir.

### Ümumi fondda 14 milyona yaxın çap nüsxəsi saxlanılır

İnformasiya resursları üzrə direktor müavini Ləman Xələfova bildirdi ki, kitabxana ənənəvi formada oxuculara xidmət edir. Hazırda kitabxananın 14 milyona yaxın çap nüsxəsi olan ümumi fondu var. Kitabxana fondunu oxucu sorğusu və günün tələblərinə uyğun sırf elmi-texniki ədəbiyyatlarla zənginləşdirilir. Fond müxtəlif dövlət müəssisələrindən, nəşriyyatlardan, şirkətlərdən, kitab mağazaları, müəllif və oxucular tərəfindən verilən kitablar hesabına komplektləşdirilir. 14 şöbəsi, 5 bölməsi, 1 oxu zalı olan kitabxananın Gəncə şəhərində filialı da fəaliyyət göstərir.

### Ən qədim kitabın 145 yaşı var

Kitabxanada marağımızı cəlb edən "Nadir nüsxələr fondu" oldu. Burada 3621 nüsxə ədəbiyyat saxlanılır. Fonda daxil olan ədəbiyyat əsasən 1878-1940-cı illəri əhatə edir. Bunların əsas hissəsi neft sahəsi, eləcə də memarlıq, inşaat, riyaziyyat, fizika, kimya, elm və texnikanın digər sahələri üzrə ədəbiyyat və ensiklopedik lüğətlərdən ibarətdir. Fondda qorunan ən qədim nəşr 1878-ci ildə Rusiyanın Sankt-Peterburq şəhərində çapdan çıxan "Türküstan diyarının geoloji materialları" (rus dilində) kitabıdır.

Qeyd edək ki, 1884-cü ildə Bakı neft sənayeçilərinin birinci qurultayında Bakı Neft Sənayeçiləri Qurultayı Şurası (BNSQŞ) seçilib. Şura Rusiya burjuaziyasının ilk sahibkar təşkilatlarından biri idi. 1898-ci ildə şura ilk nəşrini – "Neftyanoe delo" ("Neft işi") jurnalını təsis edib. Jurnalın ilk sayı rus dilində 1899-cu ilin yanvarında işıq üzü görüb. RETK-nin "Nadir nüsxələr fond"unda bu jurnalın bütün nömrələri saxlanılır.



"Neft işi" jurnalı neft sənayesinin nailiyyətləri və problemlərini işıqlandıran dünyada ilk sahəvi nəşrlərdən idi. Azərbaycanın sovetləşməsindən sonra, 1920-ci ilin may ayında "Azərbaycan neft təsərrüfatı" adlandırılıb. Jurnalda neft sənayesi haqqında qəbul edilən qanun və qərarlar, neft işinin xronologiyası (quyuların qazılması, neftin hasilatı, emal edilməsi, neft məhsullarının ticarəti), statistika, neft sənayesi şirkətlərinin hesabatları və digər məlumatlar dərc olunub.






Bundan əlavə, "Nadir nüsxələr fondun"da neft sənayeçiləri qurultaylarının "Trudı" və "Obzor" kitab-topluları qorunur. Bu nəşrlərin hər birində Abşeron yarımadasının neftli torpaqlarının plan və xəritələri (Balaxanı, Bibiheybət, Ramana, Qala), neft quyularının hasilatı, aylıq, illik göstəriciləri cədvəllərlə, diaqramlarla təqdim olunub. Maraqlısı odur ki, 140 ilə yaxın müddət keçməsinə baxmayaraq, plan, xəritə və diaqramlarda istifadə edilən rənglər hələ də solmayıb.

***

L.Xələfova bildirir ki, RETK-də mütəmadi olaraq bayramlara, əlamətdar günlərə, elm və texnikanın müxtəlif sahələrinə həsr olunmuş tədbirlər keçirilir. "Heydər Əliyev İli" münasibətilə kitabxanada Ulu öndərin 100 illiyi ilə bağlı müxtəlif tədbirlər, sərgilər təşkil olunur.

Son zamanlar RETK tərəfindən müxtəlif kitab sərgiləri, o cümlədən səyyar sərgilər də keçirilir. 2022-ci il 5-9 oktyabr tarixlərində Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilən VIII Bakı Beynəlxalq Kitab Sərgisində kitabxananın "Nadir nüsxələr fond"una daxil olan ədəbiyyatlar da nümayiş etdirilib.

Müsahibim deyir ki, belə tədbir və sərgilərdə iştirak kitabxananın oxucu sayının artmasına öz təsirini göstərir: "Elm adamları, mütəxəssislər, tələbələr və digər maraqlanan şəxslər kitabxananın xidmətlərindən yararlana bilərlər. Bu kitablar xalqımızın sərvəti, "qara qızıl"ımızın həqiqi tarixidir".

Bu kitablarla tanış olduqca sanki keçən əsrə, oradan da XIX yüzilliyə səyahət edir, o dövrün elmi-texniki yeniliklərini vərəqləmiş olursan.

### Kitablar PDF formatına köçürülür

Kitabxana proseslərinin avtomatlaşdırılması şöbəsinin işi ilə maraqlanırıq. Müsahibim qeyd edir ki, şöbənin qarşısında duran əsas vəzifələrdən biri toplanan informasiyanın sürətlə axtarılmasında və seçilməsində müasir texnologiyalardan istifadə etməkdir. 2016-cı ildən şöbədə "IRBIS-64" sistemi tətbiq edilir. Bu sistem fərdi verilənlər bazasını yaratmağa, informasiya massivində tammətnli axtarışın təşkilinə və ən əsası mövcud materiallara lokal şəbəkə və s. vasitəsilə girişin təmin olunmasına imkan yaradır. Mikrofilmləşdirmə və rəqəmsallaşdırılması bölməsi fondda olan nadir nüsxə, neft sahəsi, yeni və retro kitabların surəti çıxarılaraq PDF formatında kompüterə yerləşdirilməsini təmin edir. Bu da oxucuların gələcəkdə müvafiq ədəbiyyatlardan istifadəsini asanlaşdıracaq.

### 10-dək ölkənin kitabxanaları ilə əməkdaşlıq

Onu da öyrənirik ki, RETK M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası, AMEA-nın Mərkəzi Elmi Kitabxanası, müvafiq sahələr üzrə ali məktəblərin kitabxanaları ilə əməkdaşlıq edir. Eyni zamanda bir sıra ölkələrin kitabxanaları ilə əməkdaşlıq əlaqələri qurulub. Bunlara nümunə kimi Qazaxıstan, Özbəkistan, Latviya, Litva, Belarus, Gürcüstan, Tacikistan, Rusiya, Türkiyə və s. ölkələrin kitabxanalarını göstərmək olar.

Sonda qeyd edək ki, həftənin beş günü (I-V günlər) oxuculara xidmət edən kitabxananın internet səhifəsi (https://retk.copat.gov.az) və sosial media hesabları da fəaliyyət göstərir.

**N.Məmmədli**

# İnadkar bir ömrün 70-ci dayanacağında

"Ömrüm qaçaqaçla, çox işləməklə, qayğılarla döyüşməkdə keçdi. Nə yaşamağa, nə də yaşlanmağa vaxtım olmadı..."

Məhz bu başlıq yaraşdı onunla etdiyim uzun müsahibədən yazıya köçənlərə. Bu minvalla o, ağır, hüznlü və ən əsası da inadkar bir ömrün 70-ci dayanacağında həm dərindən nəfəs aldı, həm də çoxdandı ürəyində yükə döndərdiklərini boşaltdı.

Həmsöhbətim Akademik Milli Dram Teatrının aktyoru Xalq artisti Kazım Abdullayevdir.

*– İllər əvvələ qayıtsaq, balaxanılı oğlan teatra sevgidən gəldi, yoxsa dövrün əyləncələri az idi?*

– Bu il ömür yaşımın 70-i, səhnə yaşımın da 55-i geridə qalır. Yadımdadı, 8-ci sinfin axırları idi. Ədəbiyyat müəlliməmiz sinifdən 4 uşaq seçdi. Dedi "Balaxanı Mədəniyyət evinə gedin, komsomolun yubiley ili ilə bağlı tədbirdə şeir deyəcəksiz". Kompozisiya hazırlandı, səhnəyə çıxdıq, alqış-filan... Bir də onda gördüm ki, aludə olmuşam. Hə, beləcə, səhnəyə atdılar məni. Onu deyim ki, Balaxanıda teatr, mədəniyyət daim ön planda olub. Beləcə, klubda, dram dərnəyində müxtəlif tamaşalarda oynamağa başladım. Bilirsiniz, həmin dövrdə indiki kimi əyləncələr, məşğuliyyət sahələri geniş deyildi. Biz nəsil gənclər özümüzü ya səhnədə, ya da musiqidə tapdıq. 4 il orada məşğul oldum. Sonra o vaxtkı İncəsənət İnstitutuna qəbul olundum. 4 il əla proses getdi. Adil İsgəndərov kimi nəhəngin seçmə uşaqlardan yığdığı kinoaktyorluq kursunda oxudum. Zarafat deyil, o fakültənin ilk, şansızlığa bax ki, elə son məzunları da biz 10 nəfər olduq. Sənətdə başı daşdan-daşa dəyən 10 nəfər...

*– Müəlliminizin uğradığı haqsızlıq sizin də taleyinizdən yan keçməyib, deyəsən.*

– Özü də necə. Biz kinoaktyorlar kursu həvəslə diplom tamaşamızı hazırladıq. Nə vecimizə, iş yerimiz də hazır idi. Müəllimimiz kinostudiyanın direktoru idi. İnstitutu bitirən kimi hamımızı orada işə götürəcəkdi. Eh, sən saydığını say, gör... Keçmiş gündür, amma dünənki kimi yadımdadır: yayın istisində diplom tamaşamızın son məşqini edirik. Birdən kimsə "Uşaqlar, Adil müəllimi işdən çıxartdılar" dedi. Təsəvvür edirsiniz nə günə düşdük? Kor-peşman tamaşanın başlanmasını gözləyirdik ki, dəhlizdən doğma səs eşidildi: "Qadam, niyə bikefsən, keç zala, tamaşa başlayır axı". Adil müəllim idi. Hamımız yanına qaçdıq. Qürurlu adam idi. Təbəssümünü üzündən əskik etmədən ömrüm boyu qəlbimdə iz salacaq "Uşaqlar, bağışlayın, sizin üçün heç nə edə bilmədim", – dedi. Beləcə, diplomumuzda "dram və kino aktyorluğu" qeydi ilə ətrafa səpələndik.

*– Maraqlıdır, sonralar sizi səhnəyə atan ədəbiyyat müəlliminizi qınadınız, yoxsa kurs rəhbərinizi?*

– Heç birini. Ruhları şad olsun. Elmira müəllimə bizə ədəbiyyatı elə sevdirmişdi ki, ondan öyrəndiklərim həmişə dadıma yetdi. Adil müəllimə gəlincə, o, mənim sənət və həyat idealım idi. Onsuz da uşaqlıqdan çətinlikdə olmuşam. Böyüyüb sənətə gələndən sonra da hər şeyi dişimlə, dırnağımla qazanmışam. Sənətdəki, yəqin ki, tək şansım Adil İsgəndərov kimi dahinin kursuna düşmək, onun tələbəsi olmaq idi.

*– Kinoaktyor olmaq, sürətlə məşhurlaşmaq arzuları quran gənc məzun gəldi oldu teatr aktyoru...*

– Siz deyən kimi asan olsaydı, nə dərdim? (gülür). Əlimdə diplomla qaldım belə. Kinostudiyanın təzə direktoru "Bizə aktyor lazım deyil", – dedi. Üz tutdum nazirliyə ki, mənə iş verin. İndiki halıma baxmayın, gənclik dəliqanlılıq, iddialı olmaqmış həm də. Mədəndə traktorçu işləyən fəhlənin oğlu olasan, gedib nazirlikdən iş tələb edəsən. Sağ olsunlar, dedilər, gözlə, boş yer olanda özümüz deyərik. Bir az cəhddən sonra Lənkəran teatrında boş ştat olduğunu bildirdilər.

*– Siz də indiki gənc aktyorlar kimi "Mən hara, bölgə hara?!", – dediniz.*

– Hə. Niyə həmin bölgələrdən gələnlər şəhər teatrlarında qalmalıydı, mən bölgəyə getməliydim?

*– Yəqin uzun müddət iş tapmadınız.*



– Tapdım (gülür). Nazirliyə ikinci gəlişimdə Sumqayıt teatrının baş rejissoru Vaqif Şərifovla rastlaşdım və o, məni teatra dəvət elədi. Düzünü deyəcəm, heç bu da ürəyimcə deyildi. Amma yenə də razılaşdım. Sevincək evə gedib sənədlərimi hazırlayırdım ki, çağırış gəldi və getdim hərbi xidmətə. Sumqayıt teatrında xidmətimi başa vurandan sonra – 1976-cı ildən işləməyə başladım. Düz 20 il. Tale elə gətirdi ki, dram dərnəyi kimi burada da ilk rolum "Komsomol" poemasında Şahsuvar oldu. 1996-cı ilin yanvarınadək orada çalışdım. Bir çox tamaşalarda oynadım, əsasən də baş rollarda.

*– 90-cı illər teatrların çətin dönəmi idi...*

– Çətin də sözdür? Qəpik-quruş maaşa hər gün Bakıdan Sumqayıta getmək, oradan qayıtmaq... Elə olurdu ki, gün ərzində 3-4 dəfə gəl-get edirdim. Teatrın maaşı ilə dolanmaq olmurdu axı. Kinostudiyaya dublyaja qaçırdım. Ailə-uşaq, dolanışıq çətin idi.

*– Dublyaj demişkən, özündən çox səsi "oynayan" aktyor kimi ekranda sizin səsinizlə görünənlərə paxıllıq etməmisiniz ki?*

– Riyakarlıq edə bilmərəm, bəli, sözsüz ki, olub. Olur da, aktyor qısqanclığıdır. Amma heç kimin paxılı olmamışam. Əksinə, çalışmışam gənclərə kömək edim, əllərindən tutum. Düzdü, yaxşılığım pisliklə də qarşılanıb. Amma barışmışam, bağışlamışam.





*– Anlaşılandır. Sənətdə, teatrda intriqa qazanı həmişə qaynayır. Özəlliklə də böyük teatr kollektivində.*

– Vallah, bu, daha çox kənardan belə görünür. Mən ora gələndən elə bir intriqa görməmişəm. Amma gəlin, onu da etiraf edək ki, o teatr da, onun aktyorları da ayrı-ayrılıqda seçiləndirlər. Əksəriyyəti də ömrünü bu yolda fəda edib. Düzdü, əvəzində xalq sevgisi, dövlətin diqqətini də görmüşük. Amma bunlar da heç də asanlıqla olmayıb. Hə, hər şey rəvan gedərkən biri gəlib deyir ki, "Siz daha tamaşaçıya lazım deyilsiniz, başqa üslubda teatr və aktyor lazımdır". Belə olanda da siz deyən qazan qaynadıqca qaynayır. Ondan qalanı, adi, cari teatr, kulis məsələləridir. Məsələn, rol üstündə mübahisələr, ənənəvi "rejissor niyə məni yox, onu seçdi" kimi məsum mübahisələr, gileygüzarlar anlaşılandır.

*– Teatrların kulis arxasında zaman-zaman mediaya da səs salan münasibətlərin səbəbkarı aktyor-rejissor-direktor üçlüyündən daha çox hansıdır?*

– 55 ildir ki, sənətdəyəm. Az-çox təcrübəm var. Görün, neçə direktor görmüşəm. Ümumən aktyorun yeri səhnədir. O, direktor olanda...

*– Nə olur?*

– Aktyorlar müdir olanda lap çətin olur. Təcrübələr var, tarix var, yaddaş var. Sadalayıb heç kimin ruhunu incitmək istəmirəm. Amma rəhmətlik Azər Paşa müəllim başqa idi. Gözəl rəhbər, yaxşı rejissor və əsl pedaqoq idi. Aktyorlarını çox sevirdi. Sadəcə, kimə nə sərf edirsə, onu da danışır. Azər Paşa müəllim nəhəng rejissor və yaxşı idarəçi idi.

*– Amma siz Sumqayıtdan "Azdrama"ya deyil, Bakı Bələdiyyə Teatrına gəldiniz...*

– Bəli, bu yol-kol məşəqqətindən bezib Sumqayıt teatrından ayrılmağa məcbur oldum. Çatdıra bilmirdim heç nəyi. İşdən evə gecə saat 11-12-də zorla gəlib çatırdım. Amaliya xanımın yaratdığı Bakı Bələdiyyə Teatrı mənə yeni yurd oldu. Qısa zamanda bu teatrda da müxtəlif xarakterli rollar oynadım. Yadımdadır, o vədələrdə tədbirlərin birində Azər Paşa müəllimlə görüşdüm. Dedi "Gəl, Turabova deyim, səni "Azdrama"ya götürsün". Çox sevindim. Amma bu sevda da baş tutmadı. Baxmayaraq ki, onunla 2-3 filmdə oynamışdım, məni tanıyırdı, lakin götürmədi. Əvəzində öz tələbələrinə ştat verdi. Müəllim idi axı, həm də. Anlayıram onu. Düzü, heç mən də qapı-baca döymədim. Bakı Bələdiyyə Teatrındakı işimdən bərk yapışdım. 10-dan artıq tamaşada əsas rolları oynadım. Cəbhə bölgələrində tamaşalar göstərdik, səngər-səngər gəzdik. Amaliya xanıma minnətdaram. "Əməkdar artist" fəxri adını da onun teatrında olarkən aldım, teatrın 10 illiyi münasibətilə mən də təltif olundum. Sonra "Azdrama"ya iş üçün müraciət etdim. Rəhmətlik Əliabbas Qədirov onda teatrın direktoru idi. Məni yaxşı qarşıladı, amma ştata götürülməyim iki il sürdü. Çünki o biri teatrdan məni buraxmaq istəmədilər. Nəysə, keçənə güzəşt deyiblər. İki il ərzində dörd tamaşada əsas rolları oynadım. Sonra işə götürüldüm.

*– Yəqin böyük kollektivdə özünə yer eləmək müşkül idi...*

– Bəli, bu teatrda özünə yer eləmək çox çətindir. Ora elə bir yerdir ki, o, hər aktyoru qəbul edib, barındıra bilmir. Bunun ştat vahidi olaraq anlamayın. Baxın, elə aktyor var ki, 50 ildir teatrda, aktyor ştatındadır. Amma səhnə, tamaşaçı onu qəbul eləmir. Mənim nədənsə bu barədə bəxtim gətirdi və 7-8 ilin içində 40-dan çox rol oynadım. Düzdü, pandemiya məni aktyor olaraq çox geri saldı. Əvvəlcə ürək əməliyyatı olundum, sonra uzun müddət teatrdan ayrı düşdüm. İki dəfə ağır xəstələndim və ən dəhşətlisini yaşadım – yaddaşımı itirdim. Dəftər-dəftər söz əzbərləyən adam olasan, 2-3 cümlə yadında qalmaya. Hər şey bir yana, aktyor üçün rollarını unutmaq faciədir və o da gəldi başıma. Şükür, artıq yavaş-yavaş özümə gəlirəm.

*– Yaddaşı itirməyin yaxşı tərəfləri də var yəqin. İnsan bəzən nələrisə unutmaq istəyir.*

– Amma bəla burasındadır ki, unutmaq istədiyim hər şeyi elə bil beynimi oyaraq yazıblar.

*– Siz daha çox nələri unutmaq istərdiniz?*

– Belə fikirləşəndə çox ağır həyat yaşamışam. Gözümü açandan zillətdə olmuşam. Buna məhrumiyyətlərdən daha çox mənəvi yükü, mümkünsüz halları qatsam, adamın bağrı çatlayar. İstər maddi, istərsə də mənəvi əzablarımı kiməsə göstərməmək üçün öz üzərimdə, öz başıma açdığım oyunlar ən amansızıdır. Təsəvvür edirsiniz də halımı?! İndi oturub o illərə baxanda az qalır başıma hava gəlsin. Şükür ki, balalarımı böyüdüb ərsəyə gətirdim. Hər ikisinin ailəsi, təhsili, öz çevrəsində hörməti var. Validеyn kimi rahatam artıq.

*– Sizin qəribə bir həyat hekayəniz var və mən bundan yola çıxaraq bir sual vermək istəyirəm: sevgi, yoxsa fədakarlıq? Hansı daha vacibdir?*

– Hər ikisi və bu həyatda mən bunun hər ikisini eləmişəm. Məncə, yaxşı dost, həyat yoldaşı, ata olmuşam. İndi ailəmdən danışmaq istəmirəm. Kədərlidir, istəmirəm oxucularınız bu yaşlı aktyorun darıxdırıcı söhbətlərindən bezsin (gülür, daha doğrusu, gülməyə çalışır, mən isə sözü dəyişirəm. Amma nədənsə o, yenə istəmədən də olsa, dünənə dönür və söhbət bu nota köklənir – H.N).

*– Hansı istəklər həmişə əlçatmaz olur?*

– Cavanlıqda istəklərim çox böyük idi: işləmək və çoxlu pul qazanmaq. Ailə-uşağımın tam təmin olunmasını istəyirdim. İndi isə sadəcə yaşamaq.

*– İndi təksiz, yoxsa tənha?*

– Hər ikisi.

*– Hansı daha ağırdır: fiziki, yoxsa ruhi təklik?*

– Hər ikisi cəhənnəm əzabıdır. Adam qorxur ki, birdən yıxılıb ölər, heç kim xəbər tutmaz. Hərçənd öləndən sonra nə mənası var bunun? Onu da bilmirəm. Amma qorxduğum başıma gəldi, tək qaldım. Düzdü, uşaqlarım tez-tez zəng edirlər, oğlum qonaq gəlir. Amma nəticədə yenə təkəm.

*– Aktyor daha çox nəyə ehtiyac duyur?*

– Diqqətə, hörmətə. Çünki ehtiyac içində yaşasalar da, yenə də səhnəni, sənəti divanə kimi sevirlər. Bizdə dövlət sənət adamına hər zaman lazımi qayğını göstərir və şəxsi nümunəmdə buna şahidəm. Amma mən ümumi planda, cəmiyyətdə, kütləvi şəkildə diqqətdən danışıram.

*– Yəqin sosial şəbəkələr, mediada təqdimatları nəzərdə tutursunuz. Məsələn, "Akademik teatrın aktyorları pafosdan əl çəkmirlər" kimi iradlar tuturlar...*

– Bax, bütün məsələ də budur. Bu teatrın öz oyun üslubu, ənənəsi var. Qəbul etməyən getsin öz teatrını yaratsın. Bunu deyənlər anlamırlar ki, aktyor yüzlərlə tamaşaçının oturduğu zalda səsini, oyun texnikasını hamıya eyni cür ötürməlidir. Pafos yoxdur, sadəcə, bir balaca hündürdən danışırıq. Buna da məcburuq. Ay bala, kim kimi məcbur edir ki, gəl məhz bu aktyora, tamaşaya bax. Seçim azaddır, istəməyən getsin sükutla, pıçıltılı danışılan 10-15 tamaşaçılıq tamaşalara, teatrlara.

*– Siz özünüz sonuncu dəfə hansı başqa teatrda tamaşaya baxmısınız?*

– Ara-sıra gedirəm. Gənc Tamaşaçılar Teatrında olmuşam. Cənnət Səlimovanın, Nicat Kazımovun da tamaşalarına baxmışam. Bizim yanımızda olanda Yuğ teatrının tamaşalarına baxırdım. Bələdiyyə teatrının da. İndi deyəcəksiniz ki, saydıqlarınız köhnələrdir. Amma müqayisə üçün köhnə-təzə fərqi yoxdur.

*– İnsan həyatda ən çox nəyə öyrəşir?*

– Ən dəhşətlisi biganəlikdi, ona da öyrəşir. Oturub öz-özümə deyirəm, ay Kazım, 70-dəsən artıq. Vallah, heç bilmədim nə vaxt gəldi. Ömrüm qaçaqaçla, çox işləməklə, az qazanmaqla, qayğılarla döyüşməkdə keçdi. Nə yaşamağa, nə də yaşlanmağa vaxtım olmadı. Ancaq özün üçün yaşayanda yəqin dərd də çəkməzsən. Amma bu mənim həyatımdır və onu belə yaşamışam.

*– 70-dən sonradan nə istəyirsiniz?*

– Cansağlığı. Şükür, fəxri adım, təqaüdüm, ölkə başçısı tərəfindən hədiyyə edilən mənzilim də var. Maddi cəhətdən özümü tam dolandırıram. Bundan sonra cansağlığı lazımdı ki, istədiyim rolları ifa edim.

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 6–9 may

### Azərbaycan

**6 may 1900** – Xalq artisti Aleksandra Lavrentyevna Suvirova (1900-1962) Moskvada doğulub. Dövlət Rus Dram Teatrının aktrisası (1927-1959) olub.

**6 may 1942** – Əməkdar artist, diktor Hicran Soltan oğlu Hüseynov (1942-2013) Qəbələ rayonunda anadan olub. 1971-ci ildən Azərbaycan Televiziyasında fəaliyyət göstərib.

**7 may 1926** – Əməkdar rəssam Cəbrayıl Əlimuxtar oğlu Əzimov (1926 – 10.7.1969) Bakıda doğulub. "O olmasın, bu olsun" (Nadir Zeynalovla birgə), "Leyli və Məcnun" , "Qızmar günəş altında", "Qanun naminə" və s. filmlərin quruluşçu rəssamı olub.

**7 may 1954** – Əməkdar incəsənət xadimi Vaqif İsa oğlu Ağayev (1954-2011) Abşeron rayonunda anadan olub. 1972-ci ildən Azərbaycan Televiziyasında çalışıb.

**7 may 1957** – Xalq artisti, teatr rejissoru İrana Tofiq qızı Tağızadə (1957 – 9.4.2023) anadan olub. Akademik Rus Dram Teatrında quruluşçu rejissor işləyib, Akademik Milli Dram Teatrında tamaşalara quruluş verib.

**7 may 1998** – Tanınmış kinorejissor, operator, Xalq artisti Muxtar Baba oğlu Dadaşov (11.9.1913 – 1998) vəfat edib. "Qanun naminə", "Bakıda küləklər əsir" və s. filmlərə quruluş verib. Sənədli və bədii filmlərin ("Yeni horizont", "Arşın mal alan") operatoru olub.

**7 may 2019** – Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "Əsərlərin dövlət varidatı elan edilməsi Qaydaları" və "Əsərləri dövlət varidatı elan edilən müəlliflərin və dövlət varidatı elan edilən filmlərin Siyahısı" təsdiq edilib. Siyahıya Azərbaycanın XI–XX əsrlərdə yaşamış 35 şair və yazıçısı, 1929–1955-ci illərdə çəkilmiş 11 bədii film daxil edilib.

**7 may 2021** – Xalq şairi Musa Səfiməmməd oğlu Yaqub (10.5.1937 – 2021) vəfat edib. "Ürəyimdə yerin qaldı", "Ruhumla söhbət", "Dövrün dəyirmanı" və s. kitabların müəllifidir. Milli Məclisin deputatı (1995-2000) olub.

**7 may 2021** – Xalq artisti, aktyor Arif Əli oğlu Quliyev (16.5.1950 – 2021) vəfat edib. Musiqili Komediya, Milli Dram, İrəvan teatrlarında işləyib. "Bəxt üzüyü", "O dünyadan salam" və s. filmlərdə, televiziya tamaşalarında maraqlı rollar oynayıb.

**7 may 2021** – Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında sərəncam imzalayıb.

**8 may 1910** – Tanınmış ədəbiyyatşünas alim, şair, tərcüməçi, professor Cəfər Xəndan (Cəfər Zeynal oğlu Hacıyev; 1910 – 10.8.1961) İrəvan şəhərində anadan olub.

**8 may 1919** – SSRİ Xalq artisti, görkəmli bəstəkar, pedaqoq Soltan İsmayıl oğlu Hacıbəyov (1919 – 19.9.1974) Şuşada doğulub. "Gülşən" baleti, "Karvan" simfonik lövhəsi, "Qızılgül" musiqili komediyası, uşaqlar üçün "İsgəndər və çoban" operası və s. əsərlərin müəllifidir. Azərbaycan Dövlət Konservatoriyasının rektoru olub.

**8 may 1930** – Ədəbiyyatşünas, professor Qara Mustafa oğlu Namazov (1930 – 11.5.2016) Ermənistan SSR İcevan rayonunun Əmirxeyir kəndində doğulub. Aşıq şeirinin tarixinə dair tədqiqat əsərlərinin müəllifidir.

**8 may 1983** – Lənkəranda Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun heykəlinin açılışı keçirilib.

**9 may 1909** – Ədəbiyyatşünas alim, akademik Məmməd Cəfər (Məmməd Zeynalabdin oğlu Cəfərov; 1909-1992) Naxçıvanda anadan olub. Ədəbiyyat tarixi və nəzəriyyəsinə dair əsərlərin müəllifidir.

**9 may 1917** – Xalq artisti, tarzən Əliağa Eyvaz oğlu Quliyev (1917 – 11.1.1998) anadan olub.

**9 may 1928** – Xalq artisti, violonçel ifaçısı Sabir Hüseynəli oğlu Əliyev (1928 – 26.10.1983) anadan olub. Milli violonçel ifaçılığı sənətinin əsasını qoyub, Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**9 may 1940** – Əməkdar artist Şamil Mahmud oğlu Dəmirçiyev (1940-2002) anadan olub. İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyoru olub, Musiqili Komediya Teatrında çalışıb.

**9 may 1941** – Tanınmış aktyor Kamil Fərman oğlu Məhərrəmov (1941 – 8.10.1993) Bakıda doğulub. Sumqayıt Dövlət Dram Teatrında çalışıb, "Dərviş Parisi partladır", "Yol əhvalatı" və s. filmlərdə yaddaqalan rollar oynayıb.

**9 may 1945** – Əməkdar rəssam Faiq Nağı oğlu Abdullayev (1945 – 28.10.2020) Gəncə şəhərində doğulub. Gəncə şəhər Uşaq rəssamlıq məktəbinin müəllimi olub.

**9 may 1967** – Əməkdar artist Xanım Abdulqafar qızı Qafarova (1967 – 11.7.2014) Bakıda anadan olub. Akademik Musiqili Teatrda çalışıb, filmlərdə çəkilib.

**9 may 1973** – Bakıda əfsanəvi partizan, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidəsinin açılış mərasimi keçirilib.

**9 may 2012** – Xalq artisti Süleyman Paşa oğlu Nəcəfov (6.8.1948 – 2012) vəfat edib. İrəvan Dövlət Azərbaycan Dram Teatrının aktyoru olub, filmlərə çəkilib.

**9 may 2019** – Görkəmli bəstəkar, Azərbaycanın və SSRİ-nin Xalq artisti, Dövlət mükafatı laureatı Arif Cahangir oğlu Məlikov (13.9.1933 – 2019) vəfat edib. "Məhəbbət əfsanəsi" baleti, "Dalğalar" operettası, simfonik poemalar, 8 simfoniya və s. əsərlərin müəllifidir. Filmlərə ("Sehrli xalat", "Axırıncı aşırım"), tamaşalara musiqi yazıb. Bakı Musiqi Akademiyasının professoru olub.

### Dünya

**6 may 1856** – Dünya ədəbiyyatı və mədəniyyətində iz qoymuş psixoanaliz nəzəriyyəsinin banisi, Avstriya alimi Ziqmund Freyd (Sigmund Freud; 1856-1939) anadan olub.

**6 may 1867** – Polyak yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1924) Vladislav Reymont (1867-1925) anadan olub. "Kişilər" romanı, "1794" tarixi trilogiyası və s. əsərlərin müəllifidir.

**6 may 1922** – SSRİ Xalq artisti Vladimir Abramoviç Etuş (1922 – 9.3.2019) anadan olub. 30-dan çox filmdə çəkilib. Leonid Qaydayın "Qafqaz əsiri" filmində Saaxov rolu ilə şöhrət qazanb. Uzun illər Şukin adına Teatr Məktəbinə rəhbərik edib.

**7 may 1833** – Alman bəstəkarı, pianoçu və dirijoru Johannes Brahms (1833-1897) anadan olub. Əsərləri: "Alman rekviyemi", "Macar rəqsləri" və s.

**7 may 1840** – Rus bəstəkarı Pyotr İliç Çaykovski (1840-1893) anadan olub. 10 operanın ("Yevgeni Onegin", "Orleanlı qız", "Qaratoxmaq qadın" və s.), 3 baletin ("Qu gölü", "Yatmış gözəl", "Şelkunçik"), simfoniyaların müəllifidir.

**7 may 1861** – Hind şairi, yazıçı, filosof, bəstəkar, ədəbiyyat üzrə Nobel mükafatı (1913) laureatı Rabindranat Taqor (Rabindranath Tagore; 1861 – 7.8.1941) Kəlküttədə doğulub.

**7 may 1953** – Türkiyə müğənnisi, bəstəkar Müslüm Gursəs (1953 – 3.3.2013) Şanlıurfada doğulub.

**8 may 1903** – Fransız komediya aktyoru Fernandel (əsl adı Fernand Joseph Desire Contandin; 1903-1971) anadan olub. Filmləri: "Mademauzel Nituş", "80 gün dünya ətrafında" və s.

**8 may 1906** – İtaliya kinorejissoru, neorealizmin təmsilçisi Roberto Rosselini (1906-1977) anadan olub. Filmləri: "Roma, açıq şəhər", "Almaniya, sıfırıncı il" və s.

**9 may 1883** – İspan yazıçısı və filosofu Xose Orteqa-i-Qasset (1883-1955) anadan olub. Əsərləri: "Kütlələrin üsyanı", "İncəsənətin humanistsizləşdirilməsi" və s.

**9 may 1924** – Gürcü şairi, nasir Bulat Okucava (1924-1997) Moskvada doğulub. Əsərlərini rusca yazıb. Sözlərinə yazılmış mahnılar bir çox filmlərdə ("Belarus vağzalı", "Səhranın bəyaz günəşi" və s.) səslənir.

**Hazırladı: V.Orxan**

# Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində yubiley konserti

Azərbaycanın Almaniyadakı Səfirliyinin təşkilatçılığı və Heydər Əliyev Fondunun dəstəyi ilə Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş konsert proqramı təqdim olunub.

Tədbirdə yerli rəsmilər, xarici diplomatlar, Almaniyada yaşayan Azərbaycan, türk və digər icmaların üzvləri iştirak ediblər.

Qonaqlar əvvəlcə Heydər Əliyev haqqında sənədli filmi izləyiblər.

Mərasimdə Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev, Milli Məclisdə Azərbaycan-Almaniya parlamentlərarası əlaqələr qrupun üzvü, Heydər Əliyev Fondunun nümayəndəsi Soltan Məmmədov, Azərbaycan-Almaniya Forumunun sədri Hans-Eberhard Şleyer çıxış ediblər.

Nəsimi Ağayev qeyd edib ki, Azərbaycan müstəqilliyinin ilk illərində qarşılaşdığı böhrandan məhz Heydər Əliyevin müdrik




və uzaqgörən siyasəti nəticəsində xilas olaraq, inkişaf və yüksəliş dövrünə qədəm qoyub. Heydər Əliyevin ən böyük arzusunun Azərbaycanın ərazi bütövlüyünün bərpası olduğunu vurğulayan diplomat bu arzunun müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında 2020-ci ildə gerçəkləşdiyini vurğulayıb.

Soltan Məmmədov Heydər Əliyev Fondunun fəaliyyəti, milli-mədəni irsin qorunması və dünyada təbliği, eləcə də elm, təhsil, səhiyyə, multikulturalizm və digər sahələrdə həyata keçirilən müxtəlif layihələr barədə iştirakçıları məlumatlandırıb.

Hans-Eberhard Şleyer Heydər Əliyevin Almaniya ilə Azərbaycan arasında münasibətlərin qurulması və inkişafındakı rolundan bəhs edib.

Çıxışlardan sonra Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının musiqi rəhbəri Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə konsert proqramı təqdim edilib. Konsertdə Berlin Filarmonik Kamera Orkestri, Reyn Alman Operasının vokalçısı Mərziyyə Hüseynova, Əməkdar artistlər – xanəndə Təyyar Bayramov və tar ustası Sahib Paşazadə çıxış ediblər. Proqramda Azərbaycan bəstəkarları Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Asəf Zeynallı, Niyazi, Bəxtiyar Kərimov və Həsən Rzayevin əsərləri, xalq mahnıları, eləcə də Avropa bəstəkarlarının əsərləri səsləndirilib.

İştirakçılar tədbir çərçivəsində Heydər Əliyevin 100 illiyi ilə bağlı nümayiş olunan fotosərgi və nəşrlərlə də tanış olublar.

# Qazaxıstan ölkəmizdə mədəniyyət günləri keçirməyi planlaşdırır

2023-cü ildə Qazaxıstanla Azərbaycan arasında mədəniyyət sahəsində bir sıra tədbirlər nəzərdə tutulub. Bu barədə mayın 3-də Astanada Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva ilə görüşdə Qazaxıstanın mədəniyyət və idman naziri Asxat Oralov bildirib.



Görüşdə birgə mədəni tədbirlərin keçirilməsi müzakirə olunub. Asxat Oralov hər iki dövlət başçısının mədəniyyət sahəsində əməkdaşlığın gücləndirilməsini dəstəklədiklərini qeyd edərək deyib: "Qədim türk yazılarına həsr olunan sərginin təşkili barədə məsələ üzərində iş gedir. Bu, bizim ortaq mədəniyyətimiz haqqında çox şey öyrənmək və türk sivilizasiyasının tarixi ilə maraqlananları bu sərgi ilə tanış etmək üçün yaxşı fürsətdir".

Asxat Oralov Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyətini təqdir edərək təşkilatın Qazaxıstanın zəngin tarixi və mədəni irsinin təbliği yönündə layihələrini dəstəkləməyə hazır olduqlarını bildirib.

"Biz Türk Dövlətləri Təşkilatı, TÜRKSOY və digər istiqamətlər üzrə də Azərbaycan və digər türk ölkələri ilə mədəni əlaqələri möhkəmlətmək niyyətindəyik. Bu il Azərbaycanda Qazaxıstan Mədəniyyəti Günləri keçirməyi planlaşdırırıq. Artistlərimiz və yaradıcı kollektivlər səbirsizliklə bu fürsəti gözləyirlər", – deyə o əlavə edib.

Günay Əfəndiyeva Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun həyata keçirdiyi layihələrdən, həmçinin Azərbaycanda Qazaxıstana aid hazırlanan tədbirlərdən söhbət açıb. O, qazax xalqının görkəmli şair və mütəfəkkiri Abay Kunanbayevin, tanınmış dastançı Jambul Jabayevin irsinin tanıdılması yönündə təşkilatın müxtəlif ölkələrdə apardığı işləri diqqətə çatdırıb. Fond tərəfindən Abay Kunanbayevlə bağlı yeni kitabın hazırlandığı diqqətə çatdırılıb.

Fondla Qazaxıstanın əməkdaşlığı çərçivəsində "Otırar" beynəlxalq sənətkarlar sərgisinin və "Türk xalqlarının mənəvi dəyərləri və mədəni irsi" mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsinə dair müzakirələr aparılıb.

# Mark Eliyahu yenidən Bakıda çıxış edəcək

Məşhur kamança ifaçısı Mark Eliyaxu "The Show is about Love" ("Sevgi haqqında şou") adlı turne çərçivəsində iyunun 4-də Heydər Əliyev Sarayında çıxış edəcək.

Mark Eliyahu Dağıstanda məşhur musiqişünas və musiqiçi Perets Eliyahunun ailəsində dünyaya göz açıb. Sonra ailəsi İsrailə köçüb. Gənclik vaxtlarında əfsanəvi kamança ustadı Habil Əliyevin ifasından ruhlanan Mark bu musiqi alətini dərindən öyrənməyə qərar verib. On altı yaşında o, Azərbaycana gəlib və Əməkdar artist Ədalət Vəzirovun rəhbərliyi ilə kamançada ifa sənətinə yiyələnməyə başlayıb. Bakıda iki il qaldıqdan sonra İsrailə qayıdıb, Qərb və Şərq musiqisini daha dərindən öyrənib.

Musiqiçi müxtəlif ölkələrdə bir çox musiqi və rəqs layihələrində iştirak edib. Onun "Voices of Judea" ("İudeyanın səsləri") solo albomu musiqi tənqidçiləri tərəfindən yüksək qiymətləndirilib.

Mark Eliyahu təkcə musiqiçi deyil, o həm də multikulturalizmin və sülhün nümayəndəsidir. İfası ilə o, coğrafi sərhədləri, dil maneələrini və dini fərqləri aşaraq, dünyaya nikbin mesajlar çatdırır. Sevginin universal dili olan musiqi vasitəsilə Mark Eliyahu musiqisevərlərin ürəyinə yol tapır.







Olaylar, faktlar (6-9 may)

### 148 il əvvəl...

**7 may 1875-ci ildə** Rusiya ilə Yaponiya arasında ərazi mübadiləsi haqqında saziş imzalanıb. Saziş tərəflərin Kuril adaları və Saxalinə iddialarını tənzimləyirdi. Rusiya Kuril adalarını Yaponiyaya güzəştə gedib. Əvəzində Yaponiya Saxalin adasına iddialardan əl çəkib.

### 102 il əvvəl...

**6 may 1921-ci ildə** I Ümumazərbaycan sovetlər qurultayı (ali qanunverici orqan) işə başlayıb. Qurultayda Azərbaycan SSR-nin ilk Konstitusiyası qəbul olunub. Müvəqqəti İnqilab Komitəsi və yerlərdəki inqilab və yoxsul komitələri ləğv edilib, ali qanunverici orqan olaraq Mərkəzi İcraiyyə Komitəsi (MİK) və yerli sovetlər yaradılıb. 1921-1937-ci illərdə ümumilikdə 9 dəfə Ümumazərbaycan sovetlər qurultayı keçirildi və 1938-ci ildə bu qurumu Ali Sovet əvəzlədi.

### 93 il əvvəl...

**7 may 1930-cu ildə** Türkiyənin Hakkari vilayətində, İranla sərhəddə (Salmas, Cənubi Azərbaycan) 7,1 bal gücündə zəlzələ baş verib. Yerli vaxtla 00:34-də meydana gələn zəlzələ nəticəsində 2500-dən çox, həmçinin İranda 500-dək insan həlak olub.

### 87 il əvvəl...



**6 may 1936-cı ildə** Türkiyədə ilk ali musiqi təhsili müəssisəsi – Ankara Dövlət Konservatoriyası qurulub. Ankara Musiqi Müəllimləri Məktəbinin (1924) bazasında yaradılan konservatoriya hazırda Hacettepe Universitetinin nəzdində fəaliyyət göstərir.

### 78 il əvvəl...



**8 may 1945-ci ildə** faşist Almaniyasının qeyd-şərtsiz kapitulyasiyasına dair akt imzalanıb. Berlin yaxınlığındakı Karlshorst şəhərciyində yerli vaxtla saat 22.43-də imzalanan akta Almaniya tərəfdən Vermaxtın (alman ordusu) baş qərargah rəisi general-feldmarşal V.Keytel imza atmışdı. SSRİ tərəfdən sənədi marşal G.Jukov, müttəfiqlər adından Britaniyanın aviasiya marşalı A.Tedder imzalamışdı. Aktın imzalanması Moskva vaxtı ilə mayın 9-na düşdüyündən SSRİ-də Qələbə Günü 9 may elan olundu. Avropada isə faşizm üzərində qələbə mayın 8-də qeyd edilir.

### 73 il əvvəl...



**9 may 1950-ci ildə** "Şuman bəyannaməsi" (Fransa xarici işlər naziri Robert Şuman tərəfindən oxunan və Fransa ilə Almaniya arasında kömür və polad sənayeçilərinin ortaq fəaliyyət təşəbbüsünü irəli sürən bəyannamə) elan olunub. Bir il sonra Avropa Kömür və Polad Birliyinin qurulmasına zəmin olan "Şuman bəyannaməsi" indiki Avropa İttifaqının ilk təməl təşəbbüsü sayılır. 9 may Avropa İttifaqı ölkələrində "Avropa Günü" kimi qeyd olunur.

### 31 il əvvəl...

**8 may 1992-ci ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Şuşa şəhərini işğal ediblər. Ermənilər Şuşanın işğalı ilə Dağlıq Qarabağa nəzarəti tamamilə ələ keçirdilər, Azərbaycanın bölgədə mühüm strateji mövqeyi əldən verməsi sonrakı itkilərə zəmin yaratdı. 28 il 6 ay işğal altında qalan Şuşa şəhəri 2020-ci ilin 44 günlük Vətən müharibəsində, noyabrın 8-də müzəffər Azərbaycan Ordusu tərəfindən azad edildi.

**Hazırladı: V.Orxan**

# Ankarada Heydər Əliyevin xatirəsi anılıb

Ankarada Türkiyə Prezident Administrasiyasının Simfonik Orkestr Salonunda Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar tədbir keçirilib.




Mərasim Azərbaycanın Türkiyədəki Səfirliyinin və Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə gerçəkləşib.

Tədbirdə iki ölkə parlamentinin deputatları, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Ankara Universitetinin rektoru Necdet Ünüvar, Türkiyə Prezidentinin baş müşaviri İlnur Çevik, Ankarada yaşayan azərbaycanlılar iştirak ediblər.



Çıxışçılar Heydər Əliyevin müasir Azərbaycan tarixində xidmətlərindən, Azərbaycan-Türkiyə əlaqələrinin inkişafında Heydər Əliyevin müstəsna rolundan bəhs ediblər, Ulu öndərlə bağlı xatirələrini bölüşüblər. Qeyd olunub ki, Heydər Əliyevin fəaliyyətləri, Türk dünyasına verdiyi töhfələr bütün türk gənclərinə aşılanmalıdır.

Tədbirdə "Heydər Əliyev 100 yaşında" adlı fotosərgi təşkil edilib, Ümummilli lider haqqında sənədli film nümayiş olunub. Heydər Əliyevin sevdiyi mahnılar Türkiyədə milli ruhlu ifaları ilə tanınan azərbaycanlı müğənni, Xalq artisti Azərinin ifasında səsləndirilib.

**Mehparə Sultanova**
**Ankara**

# Madriddəki Kral Nəbatat Bağına xarıbülbül hədiyyə olunub

Azərbaycanın İspaniyadakı Səfirliyinin təşəbbüsü ilə mayın 3-də Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi tədbirləri çərçivəsində Azərbaycandan gətirilmiş və Qarabağın rəmzi olan xarıbülbül gülünün Madriddəki Kral Nəbatat Bağına hədiyyə olunması mərasimi keçirilib.

Səfir Ramiz Həsənov həmsöhbətinə xarıbülbülün Azərbaycan xalqı üçün özünəməxsus dəyəri, onun ölkəmizin zəngin tarixi və mədəniyyətini təmsil edən rəmz olması barədə məlumat verib. Diplomat bu çiçəyin Azərbaycanın dilbər guşələrindən olan Qarabağ ərazisində, xüsusilə Şuşa şəhərinin ətrafındakı yamaclarda geniş yayıldığını diqqətə çatdırıb.



Səfir bildirib ki, bundan sonra Madrid Kral Nəbatat Bağında da bitəcək xarıbülbül Azərbaycanın bütün dünyaya verdiyi sülh mesajını təcəssüm etdirir və xalqımız bu gülü özünün azadlıq, sevinc, zəfər rəmzi kimi simvollaşdırır.

Diplomat Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixində əvəzsiz xidmətlərindən, regionda sülh uğrunda fəaliyyətindən söz açaraq bildirib ki, dahi şəxsiyyətin 100 illik yubileyi ərəfəsində onun sülhpərvər siyasətinin tərənnümü qismində xarıbülbül gülünün ispan tərəfinə təqdim olunması təsadüfi deyil.

İspaniya Kral Nəbatat Bağının direktoru Esteban Manrik hədiyyə üçün Azərbaycan tərəfinə minnətdarlığını bildirib, xarıbülbülün bitməsi üçün bütün lazımi şəraitin yaradılacağını deyib. O, valehedici zərifliyə malik gülün bağın ən gözəl bitki nümunələrindən biri olacağını bildirib.

Qeyd edək ki, Kral VI Fernando tərəfindən 1755-ci ildə Manzanares çayı yaxınlığında yaradılmış nəbatat bağı möhtəşəm biomüxtəlifliyi bir araya gətirən canlı muzeydir. Bağ sonradan 1781-ci ildə hazırkı yerinə – Təbiət Elmləri Muzeyinin yanındakı "Paseo del Prado"ya köçürülüb. Burada dünyanın bir çox regionlarından 5500-dən çox flora nümunəsinə rast gəlmək mümkündür.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5044. **Sifariş:** 1132
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641